QARABAĞ AZƏRBAYCANDIR!

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 066 (6266) 16 aprel 2021-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

# Azərbaycan-Belarus münasibətləri: dostluq əlaqələrindən strateji əməkdaşlığa doğru



## YAP Mərkəzi Aparatında Ədalət Fərəcovun 85 illik yubileyi münasibətilə görüş keçirilib



Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında partiyanın Veteranlar Şurasının üzvü, professor Ədalət Fərəcovun 85 illik yubileyi münasibətilə görüş keçirilib. Yeni Azərbaycan Partiyası sədrinin müavini- Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov yubilyarı doğum günü münasibətilə təbrik edərək...

Bax 4

## YAP Gənclər Birliyinin üzvləri Ümummilli Liderin məzarını ziyarət ediblər



Aprelin 15 -də Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin üzvləri müasir müstəqil dövlətimizin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Fəxri xiyabanda xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Bax 4



Bax 5

## Metyu Brayza: “Qarabağ münaqişəsi bitib, artıq həll olunub”

“Bu gün bizim çox əla konfransımız oldu. Azərbaycan Prezidenti İlham Əliyev çıxışında çox açıq idi, ona verilən çoxsaylı suallara səmimi və dürüst...



Bax 6

## Fransanın ARTE telekanalı “Dağlıq Qarabağ: kövrək sülh” adlı veriliş yayımlayıb

Azad edilmiş ərazilərdə yaşamaq hələ mümkün deyil. Erməni silahlı qüvvələri Dağlıq Qarabağın ətrafındakı əraziləri 30 il tampon zona kimi işğal altında saxlayıblar.



Bax 3

## Minalanmış ərazilərin xəritəsi məsələsi MDB PA-da qaldırıldı

*“Zorakı ekstremizmə qarşı addımların mühüm istiqaməti silahlı münaqişələrin həllidir. Azərbaycan da ötən il torpaqlarını azad edərkən bu problemlə üzləşib. Yeni mövcud pandemiya dövründə bütün ölkələr çarə axtararaq birləşməyə çalışarkən Ermənistan növbəti dəfə Azərbaycana qarşı hərbi təxribata əl atdı, yeni ərazilər ələ keçirməyə çalışdı...*

Bax 9

## Hasan Ünal: Azərbaycan Ordusu çox böyük uğura imza atıb



## Azərbaycan XİN: Ermənistan yenə də tarixlə mifologiyanı qarışıq salır




Bax 4

## 44 günlük şanlı Zəfər - Zəngəzur dəhlizinə gedən tarixi layihəni reallaşdıran amil



Bax 8

## ABŞ Rusiyaya qarşı yeni sanksiyalar tətbiq etdi



Bax 10

## “Barselona” solaxay futbolçu axtarır



Bax 16

# Azərbaycan-Belarus münasibətləri: dostluq əlaqələrindən strateji əməkdaşlığa doğru



*Prezident İlham Əliyev: "Əminəm ki, Belarus gələcəkdə Ermənistan ilə Azərbaycan arasında əlaqələrin nizamlanmasında mühüm rol oynaya bilər"*

***Bu gün Azərbaycan-Belarus əlaqələrinin inkişafı və münasibətlərin yüksək səviyyədə olması beynəlxalq arenada da özünü göstərir. Bu, ilk növbədə prezident İlham Əliyev və Belarus prezidenti Aleksandr Lukaşenko arasında mövcud dostluq əlaqələrinin nəticəsidir.***

İqtisadi əlaqələrimiz ildən ilə sürətlənir. Hətta pandemiya dövründə iki ölkə arasında əməkdaşlıq imkanları genişlənir.Qeyd edək ki, iki ölkə arasında diplomatik əlaqələr 1993-cü ildə qurulub. Azərbaycan - Belarus prezidentlərinin qarşılıqlı səfərləri iki ölkə arasında münasibətlərin dinamik inkişafından xəbər verir.Bu baxımdan da, aprelin 14-də Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana səfəri, iki ölkə sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər.

"Belarus bizim dostumuz, sınaqdan çıxmış tərəfdaşımızdır. Təbii ki, biz onun təkcə işğaldan azad edilmiş ərazilərin bərpasında fəal iştirakına yox, həm də Ermənistanın tərəfdaşı, Ermənistanla bərabər Avrasiya İqtisadi Birliyinin və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü, eləcə də Azərbaycanın yaxın dostu, dünyada nüfuzlu ölkə kimi fəal iştirakına ümid bəsləyirik. Əlbəttə, mən əminəm ki, o, gələcəkdə Ermənistan ilə Azərbaycan arasında əlaqələrin nizamlanmasında mühüm rol oynaya bilər". Bunu Prezident İlham Əliyev Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə görüşdən sonra mətbuata açıqlamasında deyib.

Dövlət başçısı əlavə edib ki, Minsk şəhəri ilə bağlı bir format artıq keçmişdə qalıb: "Minsk qrupu mövcuddur, lakin münaqişə nizamlanıb. Minsk qrupunun nə ilə məşğul olacağı bizə hələ məlum deyil. Biz onlardan kreativ ideyalar gözləyirik. Bizim xarici işlər naziri mənə bu gün məruzə etdi ki, Minsk qrupunun fəaliyyəti ilə bağlı mənim dünənki şərhimdən sonra həmin qrup bəyanat verib. Təbii ki, mən o bəyanatla tanış olacağam. Lakin necə deyərlər, ümidvaram ki, Minsk şəhəri ilə bağlı bütün başqa formatlar sülh yolu ilə nizamlanacaq. Biz Ermənistanla münaqişəni demək olar 30 il müddətində sülh yolu ilə nizamlamaq istədik. Danışıqlar prosesinə sadiq olmağımız da bizim niyyətlərimizə dəlalət edir. Buna görə də münaqişənin hərbi-siyasi yolla nizamlanmasında təqsirkar, əlbəttə, işğalçı ölkədir. Əgər onlar müharibədən əvvəl və hətta müharibə dövründə də bizim ərazilərimizi tərk etmək barədə mənim çağırışlarıma, israrlı tələblərimə qulaq assaydılar, müharibənin nəticələri Ermənistan üçün bu dərəcədə ağrılı olmazdı. Bütün təqsirlər onlardadır. Biz ədaləti, o cümlədən tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdik və BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirdik".

### Azərbaycan Prezidenti: "Zəngəzur dəhlizi reallığa çevrilir"

"Hesab edirəm ki, münaqişədən sonrakı inkişafla bağlı vəziyyət bütövlükdə müsbət səciyyələndirilə bilər. Mən münaqişədən sonrakı vəziyyətin inkişafına bizim yanaşmalarımız və bu haqda bizim təsəvvürümüz barədə Aleksandr Qriqoryeviçi məlumatlandırdım. Şübhəsiz, Azərbaycanın mövqeyini bildirim ki, biz belə hesab edirik və reallıq da belədir ki, Dağlıq Qarabağ münaqişəsi nizamlanıb. Azərbaycan onu müstəqil surətdə nizamlayıb, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini yerinə yetirib",-deyən Azərbaycan Prezidenti bildirib ki, bu qətnamələr 27 il ərzində kağız üzərində qalıb və təəssüf ki, onların implementasiyası mexanizmi işə salınmayıb. Minsk qrupunun həmsədr ölkələrinin erməni tərəfinə müraciətlə işğala son qoymaq çağırışları da yerinə yetirilməyib: "Həmsədrlərin status-kvonun qəbuledilməzliyi barədə bəyanatları erməni tərəfindən eşidilməyib. Ermənistanın başına gələnlərin təqsirkarı məhz 20 il ərzində ölkəni uçuruma aparan Ermənistan rəhbərliyidir. İkinci Qarabağ müharibəsi Ermənistan ordusunun alçaldıcı məğlubiyyəti və tamamilə darmadağın edilməsi ilə başa çatıb. Bunun əsas təqsirkarları Ermənistanda bundan əvvəl hakimiyyətdə olanlardır. Biz tarixin bu səhifəsini çevirmək istəyirik, biz etimad tədbirlərinin möhkəmlənməsinə və bu gün həm Azərbaycan-Ermənistan-Rusiya baş nazirlərinin müavinləri səviyyəsində üçtərəfli işçi qrupu çərçivəsində, həm də qonşu ölkələr - Türkiyə və İran ilə bizim məsləhətləşmələrimiz çərçivəsində müzakirə edilən nəqliyyat-logistika layihələrinə istiqamətlənmişik. Beləliklə, Zəngəzur dəhlizi reallığa çevrilir. Biz çoxtərəfli əməkdaşlığa ümid bəsləyirik".

### Azərbaycan Prezidenti: "Qarabağın bərpası layihələrində üç dost ölkədən olan şirkətlər artıq işləyirlər, ümidvarıq ki, dördüncü ölkə Belarus olacaq"

Prezident İlham Əliyev mətbuata açıqlamasında deyib ki, ərazilərin bərpası işlərinə yalnız dost ölkələrdən olan şirkətləri cəlb edəcəyik: "Biz Qarabağda işğaldan azad olunmuş ərazilərin bərpasında bir sıra istiqamətlər üzrə - həm şəhərsalma, həm infrastrukturun yaradılması, kənd təsərrüfatının inkişafı sahələrində Belarus şirkətlərinin gələcək iştirakı ilə bağlı məsələləri ətraflı müzakirə etdik. Biz dünən də, bu gün də Belarusun aqroşəhərciklər yaradılması sahəsində təcrübəsini geniş müzakirə etdik. Mən Aleksandr Qriqoryeviçə məlumat verdim ki, Qarabağ "yaşıl enerji" zonası elan edilib və birinci "ağıllı kənd" layihəsi praktiki olaraq həyata keçirilməyə hazırdır. Əlbəttə, bu sahədə Belarusun təcrübəsi nəzərə alınmaqla bu istiqamətdə işləmək çox maraqlı olardı".

Dövlət başçısı bildirib ki, ərazilərin bərpası işlərinə yalnız dost ölkələrdən olan şirkətləri cəlb edəcəyik: "Belarus da Azərbaycan üçün belə ölkədir. Qarabağın bərpası layihələrində üç dost ölkədən olan şirkətlər artıq işləyirlər. Ümidvarıq ki, dördüncü ölkə Belarus olacaq. Biz bu sahədə məsləhətləşmələri davam etdirmək üçün Azərbaycan hökumətinin üzvlərinin Belarusa səfərləri barədə artıq razılıq əldə etmişik".Azərbaycan Prezidenti əlavə edib ki, sənaye kooperasiyası bizim münasibətlərin çox böyük seqmentidir: "Hökumətlərarası komissiyanın həmsədrləri layihələrin uğurla həyata keçirilməsi barədə bizə məruzə ediblər. Aleksandr Qriqoryeviç ilə biz bu layihəni Belarus traktorlarının yığılmasından başladıq, sonra başqa istehsalatlara -avtomobillər, yük maşınları, kombaynlar, avtobuslar və bizim "Yaşıl Qarabağ zonası" konsepsiyası çərçivəsində işimizə çox yarayacaq elektrobuslar istehsalını da nəzərdə tuturuq. Alternativ enerji mənbələri yaradılmasında Belarus şirkətlərinin iştirakı ilə bağlı məsələləri də müzakirə etdik. Bir sözlə, görüləsi işlər çoxdur. Mən bu gün də, dünən də qonaqlara dedim ki, erməni işğalından azad edilmiş ərazilərin sahəsi Lüksemburqdan dörd dəfə böyükdür. İşin həcmini təsəvvür edə bilərsiniz. Bu ərazidə hər şey dağıdılıb".

Ardı Səh. 3

# Azərbaycan-Belarus münasibətləri: dostluq əlaqələrindən strateji əməkdaşlığa doğru



## Belarus Prezidenti: "İlham Əliyev postsovet məkanındakı prezidentlər arasında ən savadlı, ən mədəni insandır"

Əvvəli-Səh-2

"Mənim mövqeyimi bütün dünya bilir, Azərbaycan və erməni xalqları da bilirlər. Mən həmişə həyatı əsas götürmüşəm. İlham Heydər oğlu həmişə şahid olub, hələ onun atası Heydər Əliyev ilə görüşlərdə bu barədə söhbət düşəndə mən həmişə sual edirdim: deyin, Qarabağdakı insanlar son hadisələrə, bu hərbi əməliyyatlara qədər daim zülm altında yaşadıqlarına görə xoşbəxtdirlərmi? Orada onlara yaxşıdırmı? Bir də ki, orada sovet dövründə olanların ondabir hissəsi, bəlkə də daha az hissəsi qalıb. Dözülməz həyatdır. Deməli, bu problemi necəsə həll etmək lazımdır. Mən həmişə açıq danışmışam, bəzən tənqid atəşinə məruz qalmışam, amma bu problemi necə həll etməyin lazım olması barədə öz mövqeyimi bildirmişəm. İlham Heydər oğlu tam səmimi və açıq şəkildə dedi ki, biz problemi sülh yolu ilə həll etmək istəyirdik". Bunu Belarus Prezidenti Aleksandr Lukaşenko Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdən sonra mətbuata açıqlamasında deyib.

Belarus Prezidenti bütün bunların şahidi və tərəfdarı olduğunu vurğulayıb: "Bu gün isə mən həqiqətən həm Azərbaycan xalqını, həm də Ermənistan xalqını onların tarixində bu kədərli, ən azı kədərli dövrün başa çatması münasibətilə təbrik etmək istəyirəm. Əhsən Prezidentə. O dedi ki, biz tarixin bu səhifəsini çevirmək istəyirik. Mənim mövqeyim, mənim arzum budur. Allah eləsin, bu bəla sovuşsun. Ermənistan və Azərbaycan xalqlarının qəlbində kin-küdurət izləri qalmasın. Mən əminəm ki, dostum və qardaşım erməniləri əsla sıxışdırmayacaq, onlarla hesabı çürütmək, qisas almaq fikrinə düşməyəcək. O, savadlı, mədəni insandır. Mən həmişə deyirəm ki, sovet dövründə o, bizim Sovet İttifaqının ən yaxşı ali məktəbini - Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirib. O, postsovet məkanındakı prezidentlər arasında ən savadlı, ən mədəni insandır. Mən həmişə bu barədə də açıq danışmışam".

### Belarus Prezidenti: "Azərbaycanın işğaldan azad olunmuş və bərpa ediləcək ərazilərində birgə müəssisələr yaratmağa hazırıq"

"İcari-iqtisadi sahədə əməkdaşlıq, kooperasiyanın daha yüksək mərhələsinə keçid, müştərək müəssisələr, texnologiyanın verilməsi və burada Azərbaycana lazım olan, lakin ənənəvi sovet dövründə və indi də malik olmadıqları istehsalatlar yaradılması barədə danışdıq. Buyurun, biz buraya, xüsusən işğaldan azad olunmuş və bərpa ediləcək ərazilərdə birgə müəssisələr yaratmağa hazırıq",- deyən Aleksandr Lukaşenko ölkəsinin Azərbaycan ilə birgə, çiyinçiyinə və məsuliyyətlə fəaliyyət göstərməyə hazır olduğunu vurğulayaraq bildirib ki, pandemiya və postpandemiya şəraitində vəziyyətin təhlilinə xeyli vaxt sərf etdik. Bir sözlə, Azərbaycan və Belarus arasında olan strateji əməkdaşlıq əlaqələri hər iki ölkənin perspektiv inkişafı baxımından, xüsusi əhəmiyyət kəsb edir. Bu əlaqələr, eyni zamanda, regionun gələcək tərəqqisi ilə bağlı yeni baxışlar formalaşdırır.

**RƏFİQƏ KAMALQIZI**

# Minalanmış ərazilərin xəritəsi məsələsi MDB PA-da qaldırıldı



*"Zorakı ekstremizmə qarşı addımların mühüm istiqaməti silahlı münaqişələrin həllidir. Azərbaycan da ötən il torpaqlarını azad edərkən bu problemlə üzləşib. Yəni mövcud pandemiya dövründə bütün ölkələr çarə axtararaq birləşməyə çalışarkən Ermənistan növbəti dəfə Azərbaycana qarşı hərbi təxribata əl atdı, yeni ərazilər ələ keçirməyə çalışdı.*

Münaqişə bölgəsinə dünyanın müxtəlif yerlərindən, əsas etibarilə Suriya, Livan, Avropa ölkələrindən erməni terrorçular axışırdı". SİA xəbər verir ki, bu fikirləri Milli Məclisin sədri Sahibə Qafarova Sankt-Peterburq şəhərində MDB Parlamentlərarası Assambleyası çərçivəsindəki iclasda deyib.

Azad edilmiş torpaqlarda minalanmış ərazilərin xəritəsinin hələ də təqdim olunmaması məsələsini qaldıran Milli Məclis sədri iştirakçı ölkələri bu məsələdə Ermənistana təzyiq göstərməyə çağırıb: "Hazırda minalardan təmizləmə işləri görülür və bu əsnada insanlar həlak olur. Ermənistan beynəlxalq hüquq çərçivəsində mükəlləfiyyətini yerinə yetirərək minalanmış ərazilər xəritəsini təqdim etsəydi, o insanlar ölməzdi. Məcbur olub bildirməliyəm ki, beynəlxalq təşkilatlar Ermənistana təzyiq göstərməlidir".

S.Qafarova 44 gün davam etmiş Vətən müharibəsi vaxtı Azərbaycanın işğalçıları layiqincə geri oturtduğunu xatırladıb: "Artıq Dağlıq Qarabağ münaqişəsi həll olunub. Bu yerdə 10 noyabr sazişinin imzalanmasında iştirak etmiş Rusiyanın xüsusi rolunu vurğulamaq istərdim".

Pandemiyanın ilk günlərindən Azərbaycanın koronavirusa qarşı mübarizənin ön sıralarında olduğunu diqqətə çatdıran Milli Məclis sədri daha sonra qeyd edib: "Ölkəmiz Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar məbləğində maliyyə yardımı, 30-dan artıq ölkəyə COVID-19-a qarşı müxtəlif vasitələr şəklində humanitar yardımlar göstərib. Azərbaycanın təşəbbüsü ilə BMT Baş Assambleyasının koronavirusa qarşı mübarizə məsələsinə həsr olunmuş xüsusi sessiyası da keçirildi".

# Qaqauziya başqanı Azərbaycana dəstəyini ifadə edib

***Moldovanın Qaqauziya Muxtar Ərazi Qurumunun başqanı İrina Vlax Azərbaycan Ordusunun Vətən müharibəsindəki Zəfərinin rəmzi hesab edilən "Xarıbülbül" döş nişanından istifadə edib. AZƏRTAC xəbər verir ki, Qaqauziya başqanı bununla Azərbaycanın 44 günlük Vətən müharibəsinə dəstəyini ifadə edib.***



Qeyd edək ki, hazırda Azərbaycanla Qaqauziya Muxtar Ərazi Qurumu arasında münasibətlər ikitərəfli əməkdaşlığın bütün səviyyələrində inkişaf etməkdədir.

Xatırladaq ki, Xarı bülbül Azərbaycanın mədəniyyət paytaxtı, Qarabağın incisi Şuşanın rəmzi hesab edilir. Eyni zamanda, Azərbaycanın İkinci Qarabağ müharibəsində şəhid olan əsgərlərin xatirəsinin rəmzi kimi qəbul olunur.

## İtaliya Senatının komissiya sədri özünün "Twitter" səhifəsində Ağdama səfəri ilə bağlı paylaşım edib

İtaliya Senatının Xarici Əlaqələr daimi komissiyasının sədri Vito Petroçelli özünün "Twitter" səhifəsində Ağdama səfəri ilə bağlı paylaşım edib. Ağdamdan şəkillər paylaşan Vito Petroçelli yazıb: "Mən Ağdamın qalıqlarına səfər edirəm. Sual verirəm: Əgər Ermənistan buranı öz ərazisi hesab edirdisə, nəyə görə darmadağın edib?".

# YAP Mərkəzi Aparatında Ədalət Fərəcovun 85 illik yubileyi münasibətilə görüş keçirilib





Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında partiyanın Veteranlar Şurasının üzvü, professor Ədalət Fərəcovun 85 illik yubileyi münasibətilə görüş keçirilib. Yeni Azərbaycan Partiyası sədrinin müavini- Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov yubilyarı doğum günü münasibətilə təbrik edərək ona möhkəm cansağlığı, ictimai-siyasi fəaliyyətində yeni-yeni uğurlar arzulayıb.

Yubilyarın elmi yaradıcılığı və siyasi fəaliyyətindən bəhs edən Tahir Budaqov qeyd edib ki, Azərbaycanda biologiya elminin inkişafında xüsusi xidmətləri olmuş dəyərli alim, professor Ədalət Fərəcov gənc nəslin təlim-tərbiyə irsinin formalaşmasında da dəsti-xətti ilə seçilən görkəmli ziyalılardandır. Ədalət Fərəcov eyni zamanda, ölkəmizin ictimai-siyasi həyatında, ümummilli məsələlərə münasibətdə əsl vətəndaş və ziyalı mövqeyi ilə seçilmiş, Azərbaycanı üzləşdiyi dərin böhran vəziyyətindən xilas etmək naminə Ulu öndər Heydər Əliyevə tarixi müraciət edən "91-lər"dən biri olmuşdur. Ədalət Fərəcov Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüş, Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi münasibəti ilə "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

Qeyd edilmişdir ki, professor Ədalət Fərəcov zəngin və şərəfli həyat yolu boyunca bir ziyalı kimi üzərinə düşən vəzifəni layiqincə yerinə yetirmiş, bu gün də Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasının üzvü kimi ictimai-siyasi fəaliyyətini uğurla davam etdirir.

Yubilyarı doğum günü münasibəti ilə təbrik edən YAP-ın Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə professor Ədalət Fərəcovu hər zaman öz sözü və dəyişməz mövqeyi olan vətəndaş kimi xarakterizə etmişdir.

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı tərəfindən göstərilən diqqətə və ünvanına deyilən xoş sözlərə görə təşəkkürünü bildirən Ədalət Fərəcov partiyanın VII Qurultayında ona göstərilən yüksək etimada görə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyevə dərin minnətdarlığını ifadə etmiş, Azərbaycanın bundan sonra daha da inkişafı naminə səy və bacarığını əsirgəməyəcəyini bildirmişdir.

# YAP Gənclər Birliyinin üzvləri Ümummilli Liderin məzarını ziyarət ediblər







***Aprelin 15 -də Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin üzvləri müasir müstəqil dövlətimizin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Fəxri xiyabanda xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.***

SİA-nın verdiyi məlumata görə, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

# Azərbaycan XİN: Ermənistan yenə də tarixlə mifologiyanı qarışıq salır

***Ermənistan Xarici İşlər Nazirliyinin nümayiş etdirdiyi yanaşma heç bir təəccüb doğurmur, çünki bu əsassız iddialar ənənəvi olaraq rəsmi Yerevan tərəfindən səsləndirilir. Əfsuslar olsun ki, Ermənistan tərəfi hər zaman olduğu kimi, eşitdiklərini fərqli şəkildə yozmaqla məşğuldur.***




AZƏRTAC xəbər verir ki, bu fikirləri Xarici İşlər Nazirliyinin Mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva KİV-in Ermənistan XİN-in nümayəndəsinin Azərbaycan Respublikasının Prezidentinin fikirlərinə şərhi ilə bağlı sualını cavablandırarkən bildirib. Leyla Abdullayeva deyib: "Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış edən Ermənistan, Azərbaycan rəsmiləri tərəfindən səsləndirilən fikirlərdə də bu kimi məqamlar axtarmağa çalışır.

Məlum olduğu kimi, məhz Ermənistan beynəlxalq hüququn dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərinin toxunulmazlığı prinsiplərinin əleyhinə çıxış edərək uzun illər ərzində Azərbaycana qarşı işğalçılıq siyasəti həyata keçirib. Əksinə, Azərbaycan beynəlxalq hüququn sözügedən prinsipləri əsasında ikitərəfli münasibətlərin normallaşdırılmasının tərəfdarıdır və hər zaman bu mövqedən çıxış edib.

Tarixi özlərinin güclü tərəfi kimi qələmə verməyə çalışan Ermənistan yenə də tarixlə mifologiyanı qarışıq salır. Elə bu səbəbdən də illərdir ki, erməni xalqını bu yalanların və miflərin girovuna çeviriblər. Rəsmi Yerevan bu həqiqəti nə qədər tez anlayarsa, erməni xalqı bir o qədər tez bölgədə dayanıqlı sülh və təhlükəsizlikdən faydalana bilər".

# Xalid Taimur Akram: Pakistan xalqı, xüsusilə gənclər Azərbaycan Prezidentinə böyük rəğbət bəsləyirlər



Biz bu gün Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdən çox razı qaldıq. İnanırıq ki, tezliklə Azərbaycan Qarabağın da inkişafına nail olacaq. Biz qaçqınların tezliklə öz yurdlarına, Şuşaya qayıdacağı günü səbirsizliklə gözləyirik. Prezident İlham Əliyevin bu istiqamətdə atdığı addımlar təqdirəlayiqdir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri aprelin 13-də Bakıda Hərbi Qənimətlər Parkı ilə tanışlıq zamanı Pakistanın Qlobal və Strateji Araşdırmalar Mərkəzinin (CGSS) icraçı direktoru Xalid Taimur Akram deyib.

"Pakistan xalqı, xüsusilə gənclər Azərbaycan Prezidenti İlham Əliyevi çox sevir və ona böyük rəğbət bəsləyirlər. Pakistan xalqı qardaş kimi sevdiyi Azərbaycan xalqını daim dəstəkləyib. Qarabağ münaqişəsi başlanan andan Azərbaycanın Qələbəsini gözləyən pakistanlılar hazırda ölkənin bu xoş günlərinə çox sevinir. Bu Parkda gördüklərim mənə qürur hissi yaşatdı. Bu muzey növbəti nəsillər üçün Azərbaycan əsgərinin mübarizliyinin bariz nümunəsidir", - deyə pakistanlı ekspert bildirib.

# Türkiyə mediası Hərbi Qənimətlər Parkının açılışını geniş işıqlandırıb


EURO: 9,70 DOLAR: 8,15 BIST 100: 1.360,75 ALTIN: 1.727,00

TÜRKİYE KORONAVİRÜS DÜNYA EKONOMİ SPOR ANALİZ İNFOGRAFİK VİDEO FOTOĞRAF

DÜNYA, AZERBAYCAN CEPHE HATTI

**Azerbaycan Cumhurbaşkanı Aliyev, Ermenistan'ın savaşta 'İskender M' balistik füzeleri kullandığını açıkladı**

Azerbaycan Cumhurbaşkanı İlham Aliyev, Ermenistan'ın Karabağ savaşında Azerbaycan'a karşı Rusya yapımı "İskender M" balistik füzeleri kullandığını açıkladı.

Ruslan Rehimov | 12.04.2021

Koronavirüs

Rus tenisçi Medvedev'in Kovid-19 testi pozitif çıktı

Mutant virüsün yayılmasıyla çocuklarda Kovid-19 belirtileri görülmeye başladı

Rusya'nın Kovid-19 aşısı 'Sputnik V'nin kullanımı Hindistan'da onaylandı

"Sanki başımın içinde büyük iğneli bir top vardı ve sağa sola çarpıyordu"

Bakü

Aliyev Bakü'de, Karabağ savaşında Ermenistan ordusundan ele geçirilen silah ve zırhlı araçların yer aldığı "Savaş Ganimetleri Müzesi"nin açılışını gerçekleştirdi.

Açık havada 5 hektar alana kurulan müzeyi gezen Aliyev, sergilenen silah ve araçları inceledi.

Aliyev, müzede sergilenen "İskender-M" füzelerinin kalıntılarını göstererek, "Ermeniler Şuşa'ya işte bu füzeyi


ТУРЦИЯ МИР ПОЛИТИКА СПОРТ ЭКОНОМИКА ИНФОГРАФИКА ВИДЕО ФОТОГАЛЕРЕЯ

МИР

**Алиев заявил о применении комплексов «Искандер-М» против Азербайджана**

Президент Ильхам Алиев принял участие в открытии в Баку Парка военных трофеев

Ruslan Rehimov | 12.04.2021

Коронавирус

Число случаев заражения коронавирусом в РФ приблизилось к 4,68 млн

В Украине начинается вакцинация препаратом CoronaVac

Число случаев заражения COVID-19 в Грузии превысило 280 тыс.

Число случаев заражения COVID-19 в Армении превысило 204 тыс.

Коронавирус в Украине: за сутки выявлено около 12 тыс. случаев заражения

БАКУ

Президент Азербайджана Ильхам Алиев сообщил о применении Арменией комплексов «Искандер-М».

Азербайджанский лидер в понедельник принял участие в открытии в Баку Парка военных трофеев площадью в 5 гектаров.

В парке экспонируется часть военной техники, взятой в качестве трофея у ВС Армении в ходе 44-дневной войны за освобождение Карабаха. В общей сложности более 300 экспонатов, в том числе около 150 единиц тяжелой техники, артиллерийские установки, зенитно-ракетные комплексы, стрелковое оружие, военные транспортные средства.

Среди экспонатов парка находятся обломки ракеты «Искандер-М», выпущенной противником по городу Шуша.


Takvim Bugünkü Takvim EURO 9,699 İSTANBUL

GÜNCEL SPOR EKONOMİ DÜNYA MAGAZİN YAŞAM YAZARLAR TAKVİM TV

Güncel 12.04.2021 17:44 - Son Güncelleme: 12.04.2021 18:00 ABONE OL Google News

**Ermeni barbarlığının bir başka kanıtı! Aliyev açıkladı: Ermenistan, Karabağ savaşında "İskender M" balistik füzeleri kullandı**

**Azerbaycan Cumhurbaşkanı İlham Aliyev, Ermenistan'ın Karabağ savaşında "İskender M" balistik füzeleri kullandığını açıkladı. Füzelerin Rus yapımı olduğunun altını çizen Aliyev, "Bu, Ermenistan'ın savaş suçunun kanıtı ve biz bir cevap istiyoruz. Bu ölümcül silah Ermenistan'ın eline nasıl geçti? Henüz bir cevap almadık ama alacağız" ifadelerini kullandı.**



Azerbaycan Cumhurbaşkanı İlham Aliyev, Ermenistan'ın Karabağ savaşında Azerbaycan'a karşı Rusya yapımı "İskender M" balistik füzeleri kullandığını açıkladı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 12-də Bakıda Hərbi Qənimətlər Parkının açılışında iştirak etməsi və təltif olunmuş hərbçilər qarşısındakı çıxışı Türkiyə kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, Anadolu və İHA xəbər agentlikləri, "TRT Haber", "Haber Global" telekanalları, "Sabah", "Takvim", "Yeni şafak" və digər qəzetlər türk ictimaiyyətinə Park barədə müfəssəl məlumat təqdim ediblər.

İnformasiyalarda diqqətə çatdırılır ki, 44 günlük Vətən müharibəsi dövründə döyüş meydanında davamlı məğlubiyyətlərə məruz qalan düşmən insanlıq əleyhinə və müharibə cinayətləri törədib, o cümlədən döyüş bölgəsindən uzaqda olan ərazilərə raket zərbələri endirib, dinc sakinləri qətlə yetirib. Həmin faktları xronoloji ardıcıllıqla özündə əks etdirən lövhə Parkın giriş hissəsində yerləşdirilib. Burada Şuşaya atılmış "İsgəndər M" raketinin qalıqları da var.

Anadolu agentliyi "Azərbaycan Prezidenti Əliyev Ermənistanın müharibədə "İsgəndər M" raketindən istifadə etdiyini açıqladı" sərlövhəli xəbəri bir neçə dildə yayıb. İnformasiyada dövlət başçımızın mövzu ilə bağlı çıxışından mühüm məqamlar əksini tapıb.


Yeni Şafak VİDEO Ramazan 06:27:29

Manşet Koronavirüs Gündem Dünya Spor Ekonomi Teknoloji Hayat Eğlence Diziler Ramazan

Ortadoğu Zeytin Dalı Harekatı Avrupa Amerika Asya ABD Seçimleri Afrika Antarktika Okyanusya

RAMAZAN'I OSMANLI BAŞKENTİ BURSA'DA KARŞILIYORUZ tvnet. TURKISH AIRLINES

DÜNYA

**Azerbaycan Cumhurbaşkanı Aliyev açıkladı: Ermenistan savaşta 'İskender M' balistik füzesi kullandı**

Azerbaycan Cumhurbaşkanı İlham Aliyev, Ermenistan'ın Karabağ savaşında Azerbaycan'a karşı Rusya yapımı 'İskender M' balistik füzeleri kullandığını açıkladı. Aliyev, müzede sergilenen 'İskender-M' füzelerinin kalıntılarını göstererek, 'Ermeniler Şuşa'ya işte bu füzeyi fırlattı. Bu füzeler Ermeni ordusuna nereden geldi? Bu füzelerin onlarda olmaması gerekirdi. İşte kanıtı burada. Bu, Ermenistan'ın savaş suçunun kanıtı ve biz bir cevap istiyoruz. Bu ölümcül silah Ermenistan'ın eline nasıl geçti?' dedi.

#Azerbaycan #İlham Aliyev #Ermenistan #İskender M #balistik füze


SABAH SON DAKİKA GÜNDEM EKONOMİ YAŞAM SAĞLIK

**Ermenistan'ın Dağlık-Karabağ'da "İskender M" balistik füzesi kullandığı ortaya çıtı**

ABONE OL Google News

Azerbaycan Cumhurbaşkanı İlham Aliyev, Ermenistan'ın Dağlık-Karabağ savaşında Rus yapımı "İskender M" balistik füzelerini kullandığını belirterek, füzenin Ermenistan'ın savaş suçunun kanıtı olduğuna dikkat çekti.

# "Prezident Ermənistan tərəfindən aparılan dezinformasiya kampaniyasına tutarlı cavab verdi"



ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı konfransın ən böyük əhəmiyyəti Azərbaycan Prezidenti İlham Əliyevin bu tədbirdə iştirakı oldu. Bunu Trend-ə açıqlamasında Azərbaycanın Birinci vitse-prezidentinin köməkçisi Elçin Əmirbəyov deyib.

E.Əmirbəyov bildirib ki, Prezident 3 saat ərzində çıxış etdi, çıxışdan sonra qonaqlar tərəfindən verilən sualları cavablandırdı: "Cənab Prezident bir çox məsələlərə aydınlıq gətirdi, tutarlı arqumentlər gətirərək sualları cavablandırdı. Cənab Prezident Ermənistan tərəfindən bizə qarşı aparılan dezinformasiya kampaniyasına tutarlı cavab verdi".

Hərbi Qənimətlər Parkı haqqında danışan E.Əmirbəyov bu parkın salınmasından qürur hissi keçirdiyini bildirib: "Bir Azərbaycan oğlu kimi bu parka gələndə qürur hissi keçirirəm. Bu onun təzahürüdür ki, ermənilərin 10 illiklər ərzində öz orduları haqqında yaydıqları mifdən başqa bir şey olmayıb. Xarici qonaqların da əsas fikri ondan ibarət oldu ki, Azərbaycan bu müharibəni özünün şücaəti, verdiyi qan sayəsində qazanıb və tarixi ədalət bərpa edilib. İştirakçıların bir qismi də onu qeyd etdi ki, bu parkın salınması gələcək nəsillər üçün böyük hadisəsir. Eyni zamanda, münaqişə ilə üzləşmiş ölkələrin iştirakçıları gördülər ki, bu örnək onların ölkələrində də istifadə oluna bilər".

# Metyu Brayza: "Qarabağ münaqişəsi bitib, artıq həll olunub"



"Bu gün bizim çox əla konfransımız oldu. Azərbaycan Prezidenti İlham Əliyev çıxışında çox açıq idi, ona verilən çoxsaylı suallara səmimi və dürüst şəkildə cavab verdi. Bununla beynəlxalq ekspertlərin Azərbaycanın müharibəni belə minimum itkilərlə necə aparması barədə daha yaxşı fikir formalaşdı. Əliyevin də dediyi kimi, Azərbaycanın perspektivindən baxdıqda, Qarabağ münaqişəsi bitib, artıq həll olunub. 2020-ci il noyabrın 9-da qəbul olunan bəyanat elə bu barədədir". Bunu ATƏT-in Minsk qrupunun keçmiş həmsədri, beynəlxalq ekspert Metyu Brayza deyib.

Onun fikrincə, bu, onların illər ərzində Minsk qrupu çərçivəsində "Madrid prinsipləri"nə əsaslanan həll yolunun bənzəridir: "Bu prinsipləri 2009-cu ildə Ermənistan və Azərbaycan tərəfi qəbul etmişdi. Beləliklə, bu nəticə ədalətlidir, çünki ortada hər iki ölkənin razılığı var. Olmayan isə Dağlıq Qarabağın qanuni statusu ilə bağlı məsələdir. Dağlıq Qarabağın qanuni statusu ilə bağlı məsələnin şansı qalmayıb, çünki Ermənistan müharibəni uduzub".

Sabiq həmsədrin sözlərinə görə, Prezident Əliyev deyib ki, Azərbaycan tarixində bu münaqişə ilə bağlı səhifə artıq qapanıb: "O, həqiqətən də gələcəyə doğru irəliləmək istədiyini, müharibəni və münaqişəni əbədi olaraq arxada qoymaq istədiyini vurğuladı. Lakin Ermənistan münaqişənin sona çatmasını qəbul etməyə hazır deyil. Buna zaman lazım olacaq və psixoloji travma keçəcək, lakin Azərbaycan artıq irəliyə doğru gedir, ərazilərini bərpa edir".

# Ermənilər İlham Əliyevi dinləməli və nəticə çıxarmalıdırlar

***Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın digər ərazilərini birləşdirəcək tarixi vilayətimiz - hazırda Ermənistanın ərazisinə daxil olmuş Zəngəzurun üzərindən nəqliyyat dəhlizinin yaradılması mümkünlüyü ikinci Qarabağ müharibəsindən sonra regionun sülhlə təmin olunması məsələsində mühüm amillərdən biridir. Belə ki, ADA Universitetində "Cənubi Qafqaza yeni baxış: postmünaqişə dövründə inkişaf və əməkdaşlıq" konfransında çıxış edən Prezident İlham Əliyev Zəngəzur dəhlizinin yaradılması əhəmiyyəti barədə danışarkən, Ermənistan da daxil olmaqla regional ölkələrin bu faktordan tam şəkildə yararlana biləcəklərini vurğulayıb.***

## Zəngəzur dəhlizi üzərində normal münasibətlərin qurulması isə Ermənistana niyə sərf etmir?

Lakin o da məlumdur ki, Ermənistan Zəngəzur dəhlizinin yaradılması prosesini gecikdirir. Özü də yalnız müxalifət düşərgəsində deyil, həmçinin hakimiyyət dairələrində dəhlizin yaradılmasının yalnız Azərbaycana və Türkiyəyə səmərə verəcəyi barədə əsassız iddiaların səsləndirilməsi qarşı tərəfin konstruktivlikdən uzaq olmasını göstərir. Daha dəqiq desək, dəhlizin yaradılması prosesi ətrafında sırf erməni düşüncəsi belədir - ondan düşmənlər (yəni Bakı və Ankara) yararlanacaqlar bu kimi apriori, yəni Zəngəzur dəhlizi üzərində normal münasibətlərin qurulması isə Ermənistana sərf etmir.

Beləliklə, bu cür mağara təfəkkürü ilə türk ölkələrinə və xalqlarına qarşı nifrətini nümayiş etdirən Ermənistanın eyni xətdə davam edəcəyi halda inkişaf etməsi mümkünsüzlüyü daha da artmağa başlayır. Ölkənin daha ağır duruma doğru yuvarlanması prosesinin qarşısını ala biləcək yeganə gerçəklik - regional və iqtisadi əməkdaşlığa doğru addım atmaq, o cümlədən, Zəngəzur dəhlizinin yaradılmasında yaxından iştirak etmək. Ancaq türkofobiya xəstəliyi Ermənistanı elə bir həddə qədər gətirib-çıxarıb ki, indi də, müharibədən aldığı ölümcül zərbələrdən sonra da bu xəstəlikdən xilas olmağı bacarmır.

Daha doğrusu, postmüharibə reallığındakı erməni millətçiliyi ideologiyası revanşçılıq hisslərinə qapılıb və guya onlar tərəfindən "yaradılmış" saxta dövlətin "bərpası" daha önəmliymiş. Bu baxımdan, regiona mütləq inkişaf və tərəqqi verə biləcək layihələrin həyata keçirilməsinə imkan verməmək, ya da müxtəlif bəhanələrlə yaxalarını kənara çəkmək onların təbirincə doğru seçimiymiş...

## İrəvanın çıxış yolu var!

Aydındır ki, Ermənistanın xilasının yeganə çıxış yolu qonşu Azərbaycana və Türkiyəyə ərazi iddialarından geri çəkilməsindədir. Yalnız bu olarsa, Ermənistan təcrid vəziyyətindən çıxa bilər. Xüsusilə, Azərbaycan Silahlı Qüvvələrnin uğurlu hərbi əməliyyatları nəticəsində azad etdiyi əraziləri geri qaytarılmasından sonra Ermənistan tərəfinin yenidən ərazi iddialarında bulunması, ya da qisasçılıq hissini qüvvədə saxlaması məntiqsizlikdir.

Digər tərəfdən, Prezident İlham Əliyev Türkiyə hökumətinin Ermənistanla sərhədlərinin açılması perspektivində konstruktiv addımlara hazır olmasından məlumatlı olduğunu vurğulayıb. Lakin bu addımlar adekvat reaksiya verməlidir və Ermənistanın birinci atacağı addımı Türkiyəyə qarşı ərazi iddialarından əl çəkməsi ilə bağlı olmalıdır. Azərbaycan Prezidenti bu məsələ ilə bağlı erməni tərəfinə müvafiq cavabını verib. SİTAT: "Öz konstitusiyanızdan Türkiyəyə qarşı ərazi iddialarınızı ləğv edin. Mən bilmirəm, başqa ölkələrin konstitusiyalarında digər ölkələrin ərazilərinə qarşı tələblər varmı? Mənim baxışımca, unikal situasiyadır".




**Prezident İlham Əliyev: "Ermənistan rabitə məsələsində çətinliklərə son qoymaq istəyirsə, tranzit ölkəyə çevrilmək imkanı əldə etmək istəyirsə, ona bu məsələdə yalnız Türkiyə kömək edə bilər"**

Beləliklə, Azərbaycan dövlətinin rəhbəri Türkiyənin növbəti fəaliyyətinin Ermənistanın mövqeyindən asılı olduğunu bildirib. Ancaq diqqət çəkən məqamlardan biri də budur ki, İlham Əliyev hər kəsə açıq şəkildə aydın edib - Zəngəzur dəhlizi 10 noyabr və 11 yanvar tarixli üçtərəfli bəyanatların tərkib hissəsidir və proses Türkiyənin iştirakı, razılığı olmadan həyata keçirilə bilməz.

"Türkiyə Azərbaycan, Ermənistan və Rusiya baş nazir müavinləri səviyyəsində üçtərəfli işçi qrupunda təmsil olunmasa da, danışıqların gedişi barədə Türkiyəni məlumatlandırdıq. Ermənistan rabitədə məsələsində çətinliklərə son qoymaq istəyirsə, tranzit ölkəyə çevrilmək imkanı əldə etmək istəyirsə, ona bu məsələdə yalnız Türkiyə kömək edə bilər. Bildiyim qədəri ilə Türkiyə hökuməti buna hazırdır. Top indi yenə də Ermənistan tərəfindədir ", Prezident İlham Əliyev vurğulayıb.

Bu mənada, Azərbaycan dövlətinin rəhbəri bir daha aydınlaşdırdı ki, Zəngəzur dəhlizi ideyasını dəstəkləyir, eyni zamanda Bakı və Ankaranın maraqlarının eyni olduğunu, regional faktordakı açar rolu aldıqlarını, siyasi, hərbi və iqtisadi məsələlərdə strateji müttəfiq olduqlarını sübuta yetirdi. Bu reallıqlar məhz 44 günlük müharibənin nəticələri ilə möhkəmlənib. Konkret olaraq isə müharibədən sonra Ermənistanın nümayiş etdirdiyi kaprizləri artıq onun üçün heç nəyi həll edə bilməz. Bu baxımdan, Ermənistanın Zəngəzur dəhlizi layihəsində köhnə və xəstə təfəkküründən əl çəkməklə inkişaf, tərəqqi məqsədli addımlara doğru getməsi bu ölkənin xilası, regionda sabitliyin, sülhün bərqərar olmasına dəstəyi hesab oluna bilər. Təbii ki, ağıllı olarsa...

*Ermənistanın daha ağır duruma doğru yuvarlanması prosesinin qarşısını ala biləcək yeganə gerçəklik - regional və iqtisadi əməkdaşlığa doğru addım atmaq, o cümlədən, Zəngəzur dəhlizinin yaradılmasında yaxından iştirak etmək*

***Rövşən RƏSULOV***

# Fransanın ARTE telekanalı "Dağlıq Qarabağ: kövrək sülh" adlı veriliş yayımlayıb




Azad edilmiş ərazilərdə yaşamaq hələ mümkün deyil. Erməni silahlı qüvvələri Dağlıq Qarabağın ətrafındakı əraziləri 30 il tampon zona kimi işğal altında saxlayıblar. Bu ərazilər gözə görünməz təhlükələrlə doludur. Hər tərəf minalanıb. Ötən il bəyanat imzalanandan sonra onlarla mina partlayıb, onlarla insan, xüsusilə də mülki sakinlər minaların qurbanları olub və ya yaralanıblar.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Fransanın ARTE telekanalında yayımlanan "Dağlıq Qarabağ: kövrək sülh" adlı verilişdə səsləndirilib.

Bildirilib ki, mövcud təhlükəyə baxmayaraq, insanlar çox cəsarətlidirlər. Mina təhlükəsi 30 ildir ayrı düşdükləri doğma yurdlarına qovuşmaq arzusu ilə yaşayan insanlara mane ola bilmir. İnsanlar doğma evlərini görmək üçün kəndlərinə yollanırlar, ancaq hökumət təhlükənin qarşısını almaq məqsədi ilə onlara azad olunmuş ərazilərə getməyə icazə vermir. Yalnız Xalid kimi bəzi insanların doğma evini görmək şansı olur. O, evinə getmək icazəsi alıb.

Xalid deyir ki, işğaldan əvvəl kəndlərinin böyük iqtisadi imkanları var idi, insanlar yaxşı yaşayırdılar. Amma ermənilər 30 illik işğal vaxtında bu ərazilərdəki evlərin hamısını dağıdıblar. Bütün iqtisadiyyat məhv edilib. Yalnız erməni əsgərlərinin yaşaması üçün istifadə edilən binalar saxlanılıb. Mülki əhali haqqında heç düşünülməyib.

Reportajda göstərilir ki, nəhayət, Xalid atası ilə birlikdə Suqovuşanda tikdiyi gölün sahilindəki evinə çatır. Ancaq o, bu evdə yaşaya bilməz, çünki ev dağıdılıb, ətraf minalanıb və hər addımda ölüm təhlükəsi var.

Xalid uşaqlarından söz açaraq, onların ata yurduna qayıtmaq istədiklərini bildirir: "Evimiz dağıdılıb, burada çox işlər görmək lazımdır. Buna baxmayaraq, biz yenə öz evimizə qayıtmaq istəyirik. Birlikdə yenidən evimizi bərpa edəcəyik. Uşaqlarım ata yurdunu görməyi səbirsizliklə gözləyirlər". Amma minaya görə hələ bu mümkün deyil.

"30 ildir ki, Azərbaycan hökuməti bütün səylərini ordu quruculuğuna səfərbər edib. Bu illər ərzində yeganə arzu torpaqların azad edilməsi olub. İndi torpaqlarımız işğaldan azad edilib. Azərbaycan hökuməti bu əraziləri yenidən tikib quracaq", - deyə Xalid əminliklə söyləyir.

Jurnalist neft sənayesi sayəsində Azərbaycanın zəngin ölkə, Bakının isə ölkənin iqtisadi rəmzi olduğunu bildirir. Azərbaycanın bu imkanları azad edilmiş torpaqlarla bağlı böyük ambisiyalardan xəbər verir. Qələbədən sonra Qarabağda yenidənqurma işlərinə başlanılıb.

Verilişdə Füzuli şəhərinin səmadan çəkilişi göstərilir: şəhər tamamilə dağıdılıb, yalnız uçuq evlər görünür. Jurnalist qeyd edir ki, kabus şəhərinə çevrilmiş Füzulidə Prezident İlham Əliyevin göstərişi ilə böyük tikinti işləri başlayıb. Buldozerlər tikilməkdə olan beynəlxalq aeroportun yollarını düzəldir. Bu, dağıdılmış regiona yenidən iqtisadi tərəqqi gətirəcək.

Qeyd olunur ki, müharibənin ilk günlərindən Füzuli ətrafında ən intensiv döyüşlər gedib. Erməni əsgərləri dronların və artilleriyanın hədəfinə çevrilib.

Ekranda dağıdılmış Füzuli şəhəri göstərilərək bildirilir ki, 1994-cü ildən əvvəl 17 min əhalisi olan şəhər bu gün daş kabusu və mina sahəsinə çevrilib. Mustafayev gələcəkdə şəhəri elektrik enerjisi ilə təmin edəcək elektrik stansiyasının tikintisinə rəhbərlik edir və hər gün işçilərlə təhlükəsizlik qaydalarını xatırladır: "Bilirsiniz ki, ətraf minalanıb. Ona görə ehtiyatla hərəkət etməli, müəyyən edilmiş yoldan kənara çıxmamalısınız, diqqətli olmalısınız. Biz buraya, 30 ildir gözlədiyimiz torpaqlara xidmət etməyə gəlmişik". Mustafayev jurnalistlə təəssüratlarını bölüşərək deyir ki, buraya gələndə bütün tikililərin dağıdıldığını görüb. Burada işləmək onlar üçün bir şansdır və regionun əvvəlki vəziyyətini bərpa etməyə hazırdırlar. "Səylərimizi üçqat artıracağıq ki, məqsədlərimizi tezliklə reallaşdıraq. Buraya gəlmək hər bir Azərbaycanlının arzusudur",- deyə Mustafayev bildirir.

Azad edilmiş ərazilərdəki onlarla dini məkan Azərbaycanın nəzarətinə keçib. Bu abidələrin böyük əksəriyyəti Azərbaycanda yaşayan, milli azlıqdan olan xristianlara aiddir.

Azərbaycan hərbçilərinin müşayiəti ilə dindarlardan və jurnalistlərdən ibarət qrup "Tityanavanq" monastırına gedir. 13 dindarı 50 jurnalist müşayiət edir. Dindarlar jurnalistlərin çəkilişi altında dini ayinlərini icra edirlər. Barışıq mümkündürmü? Yenidən Xalid danışır: "bizim üçün fərqi yoxdur, ermənilər orada yaşayacaq ya yox. Əsas odur ki, bu torpaqlar Azərbaycanındır və ermənilər burada yaşamaq istəyirlərsə, Azərbaycan dövlətini qəbul etməlidirlər. Bu müharibəni erməni terrorçuları və ideoloqları başladılar. Ermənistan Azərbaycana və azərbaycanlılara qarşı nifrət siyasətini dayandırmalıdır. Telejurnalist həmsöhbət olduğu Xalidin övladlarını danışdırır və bildirir ki, uşaqlar atalarına nisbətən daha emosiyasız danışırlar və hökumətin siyasətinə anlayışla yanaşırlar.

# Azərbaycanın hərtərəfli inkişafı prosesində həyata keçirilən islahatlar mühüm rol oynayır



*Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü Mixail Zabelinin yap.org.az-a müsahibəsi*

***- Mixail Yuryeviç, bu gün Azərbaycan inkişafının yeni mərhələsinə qədəm qoyub. 44 günlük Vətən müharibəsində torpaqlarımız işğaldan azad edilib. Hazırda ölkəmizin qarşısında yeni hədəflər dayanır. Bu barədə sizin fikirlərinizi bilmək istərdik...***

- 30 il ərzində Azərbaycan Respublikasının ərazilərinin 20 faizi erməni silahlı birləşmələrinin işğalı altında qalıb. 30 il dünya ictimaiyyəti, ATƏT-in Minsk qrupu Ermənistanı məcbur edə bilməyib ki, özünün silahlı birləşmələrini işğal edilmiş torpaqlardan çıxarsın.

Bu məsələnin həllinin uzadılması Azərbaycan xalqında məsələnin sülh yolu ilə həllinə - Azərbaycanın tarixi torpaqlarının geri qaytarılmasında inamsızlıq və narahatlıqlara səbəb olurdu. Buna görə Prezidentimiz İlham Əliyevin Azərbaycan xalqına müraciəti, bizim Ordumuzun erməni işğalçılarına cavab verməsi və işğal edilən torpaqların azad edilməsi məqsədi ilə əks-hücuma keçməsi haqqında məlumatlar, dövlət başçısının 27 sentyabr 2020-ci il tarixli inamlı nitqi xalqı ilhamlandırdı və onu öz Prezidentinin - Respublika Silahlı Qüvvələrinin Ali Baş Komandanının ətrafında - nəyin bahasına olursa olsun özünün tarixi torpaqlarını erməni işğalçılarından azad etmək kimi vahid istəklə birləşdirdi.

44 günlük Vətən müharibəsi ərzində bizim igid döyüşçülərimiz düşməni darmadağın etdi və işğal altında olan tormaqlarımızı azad etdi. Və hazırda bizim dövlətimiz və xalqımız qarşısında yeni mühüm vəzifələr - azad edilmiş torpaqlarda qayda-qanun yaradılması, infrastrukturun bərpası, faktiki olaraq təməlinə qədər dağıdılmış binaların, mədəniyyət və tarixi abidələrin yenidən bərpası və nəhayət öz evlərindən qovulmuş olan məcburi köçkünlərin öz doğma ocaqlarına geri qayıtması imkanının yaradılması durur.

***- Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə genişmiqyaslı islahatlar həyata keçirilir. Sizcə, islahatların əhəmiyyəti nədən ibarətdir?***

- Qarşıda dayanan vəzifələrin həlli, şübhəsiz ki, respublikanın ictimai-siyasi, sosial, iqtisadi və mədəni həyatının irəliyə doğru bundan sonra da inkişaf etməsini tələb edir. Həmin proseslərin mühüm tərkib hissəsi Prezidentimiz İlham Əliyev tərəfindən həyata keçirilən islahatlardır. Özünün çıxışlarında Prezidentimiz iqtisadiyyatın idarə edilməsinin bütün sistemlərinin yenidən qurulması, çevik və səmərəli nəzarət üsullarının yaradılması, idarəetməyə müasir yanaşmanın tətbiq edilməsi, ölkəmizə müasir texnologiyaların və investisiyaların cəlb edilməsi məsələlərini qoyur.

Burada Prezidentimiz ön plana idarəetmənin bütün səviyyələrində - Nazirlər Kabineti, Prezident Administrasiyası, nazirliklərdə, yerli icra orqanlarında - kadr islahatlarının aparılması, iqtisadiyyatın idarə edilməsi sisteminə müasir menecmentin cəlb edilməsi üzrə vəzifələri çıxarır ki, bu da şübhəsiz ki, kadr dəyişikliklərinin müsbət nəticələridir. Kadr islahatları fonunda korrupsiya və rüşvətxorluqla, maliyyə pozuntuları ilə mübarizə daha predmetli və ciddi aparılmağa başlamışdır.

***- Məlum olduğu kimi, islahatlar siyasi sferanı da əhatə edir. Sizcə, Yeni Azərbaycan Partiyasının VII Qurultayında partiyanın yeni Nizamnaməsinin qəbul edilməsi, struktur dəyişikliyi, rəhbər qurumların yeni tərkibinin seçilməsi YAP-ın gələcək fəaliyyətində nə kimi yeniliklər vəd edir?***

- Cənab Prezident xüsusilə vurğulayıb ki, respublikanın sabit inkişafının əsas amili dövlətin daxili sabitliyidir. Yeni mərhələdə biz siyasi sistemi daha da dərinləşdirməliyik.

Müəyyən islahatlar Yeni Azərbaycan Partiyasını da əhatə edib. Böyük siyasi və dövlət xadimi Heydər Əliyev tərəfindən yaradılmış olan bizim partiyamız müxalif partiyasından xalqın lider partiyasına çevrilmiş, öz sıralarında müxtəlif sosial təbəqələri və müxtəlif millətlərdən olan partiya üzvlərini birləşdirərək respublikamızın ictimai-siyasi həyatında sabitləşdirici amil olmuşdur.

Yeni Azərbaycan Partiyasının VII qurultayı ölkənin ictimai-siyasi həyatında mühüm hadisə oldu. Partiyada bir sıra müsbət dəyişikliklər baş verdi, partiyanın idarə edilməsinin və onun fəaliyyətinin tənzimlənməsinin yeni çevik mexanizminin yaradılması aktuallaşdı ki, bu da VII qurultayda qəbul edilən partiyanın yeni Nizamnaməsində təsbit edildi.

Struktur dəyişiklikləri, formatın yenilənməsi, partiyanın İdarə Heyətinin tərkibinin genişləndirilməsi, partiyanın Veteranlar Şurasının yaradılması partiyanın gələcək fəaliyyəti üçün möhkəm bünövrə qoydu. Altı dost partiyanın bizim partiyaya birləşməsi də bunu sübut etdi. Belə ki, partiyamızın məqsədi, proqram və fəaliyyəti, onun əldə etdiyi nailiyyətlər dost partiyalar üçün də cəlbedici olmuşdur.

***- Mixail Yuryeviç, rəhbərlik etdiyiniz Azərbaycanda Rus İcması ölkəmizdə həyata keçirilən inkişaf siyasətini necə dəyərləndirir?***

- Azərbaycanın rus icması siyasi struktur deyil - bu insanların ictimai birliyidir, bütün Azərbaycan xalqının ümidləri ilə daima yaşamış və yaşamaqda olan ölkəmizin çoxmillətli cəmiyyətinin nüvəsidir. Bizim vəzifələrimiz, bütün cəmiyyətimizin qarşısında Prezidentimiz İlham Əliyevin qoymuş olduğu vəzifələrdir - dövlətimizin ictimai-siyasi inkişafına sabitləşdirmə amili gətirmək, bizim xalqımızın ümuminsani dəyərlərini inkişaf etdirmək və daha dərinləşdirməkdir.

Azərbaycanın müxtəlif millətlərdən olan vətəndaşları, o cümlədən ruslar Prezident İlham Heydər oğlu Əliyevə dərindən inanır və hörmət edir, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəaliyyətinə səmimi minnətdarlıqla münasibət bəsləyirlər və heç də az əhəmiyyətli deyil ki, öz ölkələri və özünün - səmimi, mehriban, həssas, digər millətlərdən və dinlərdən olan insanlara hörmətlə yanaşan xalqı ilə fəxr edirlər.

Biz öz qardaşlarımız - Azərbaycan xalqı ilə yanaşı azad, demokratik ölkədə yaşayırıq. Biz onun hələ əcdadlarımız tərəfindən bu xalqın qəlbinə yerləşdirilmiş olan yüksək multikulturalizm keyfiyyətlərinə görə səmimi qəlbdən minnətdarıq.

Biz ruslar respublikanın tam hüquqlu vətəndaşları olaraq rus dilindən sərbəst istifadə edir, özümüzün mədəniyyət və ənənələrimizi qorumuşuq, dövlət tərəfindən qayğı ilə qorunan və Heydər Əliyev Fondu tərəfindən yüksək səviyyədə bərpa edilən xristian pravoslav kilsələrimizi sərbəst şəkildə ziyarət edirik. Respublikada rus dilində olan məktəblər saxlanılmış, respublikanın ali təhsil müəssisələrində rus dilində olan fakültələr fəaliyyət göstərir. Azərbaycanın 120 minlik rus əhalisi heç bir zaman və heç bir məsələdə sıxışdırılma və ya özünün vətəndaş hüquqlarının məhdudlaşdırılmasını hiss etməmişdir və Azərbaycan xalqına dərin minnətdarlıq hissini yaşayır.

Azərbaycan - bizim doğma torpağımızdır, bura bizim Vətənimizdir. Məhz buna görədir ki, rus gəncləri, eləcə də digər millətlərdən olan gənclər Birinci Qarabağ müharibəsində olduğu kimi, Vətən müharibəsində də heç düşünmədən bizim ölkəmizin ərazi bütövlüyünün qorunması üçün azərbaycanlı qardaşları ilə çiyin-çiyinə dayandı, bir çoxları xalqın xoşbəxliyi və rifahı naminə həyatlarından keçdi.

Yeni mərhələdə bizim dövlətimizin bütün cəmiyyətinin nüvəsi kimi Rus icmasının vəzifələri ölkəmizin bundan sonrakı inkişafında, millətlərarası dialoqun dərinləşdirilməsində, dövlətimizin maraqlarının qorunmasında, bizim tarixi qələbəmizə ləkə vurmağa yönələn təxribatçı addımların ifşa edilməsində yaradıcılıqla iştirak etməkdir.

# DİQQƏT: Pandemiyada infarkt ölümləri 2 dəfə artdı!



Pandemiyada həyat tərzindəki dəyişikliklər səbəbindən hərəkətsizlik, piylənmə, əlavə stress infarkt və insult riskini artırır. Tədqiqatlar göstərir ki, koronavirus pandemiyası zamanı infarkt nəticəsində ölüm riski əvvəlki dövrlərə nisbətən iki dəfə çoxdur. Ürək xəstəliyi əlamətləri olan xəstələr çirklənmə narahatlığı səbəbi ilə xəstəxanaya müraciət etməkdən çəkinə və müalicələrini poza bilər. Bu vəziyyət mənzərənin daha da kəskinləşməsinə səbəb olur. SİA-nın Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, kardiologiya mütəxəssisi həkim Nuri Cömert ürək sağlamlığında nəzərə alınacaq amillər haqqında məlumat verib.

Simptomlar varsa, dərhal bir mütəxəssisə müraciət edilməlidir

Covid-19 pandemiyası zamanı bir çox insan koronavirusa yoluxmaq qorxusu ilə xəstəxanaya getməkdən çəkinir. Bu, bir çox insanın infarkt əlamətlərini görməməzlikdən gəlməsinə səbəb olur. İnfark əlamətlərinə əsasən vaxtında həkimə müraciət etmək sağlamlıq üçün vacibdir. Ölümcül olmayan infarkt belə, sonrakı illərdə ürək çatışmazlığına səbəb ola bilər.

Pandemiyada ürək xəstəlikləri səbəbindən ölüm nisbəti artır

Tədqiqatlar, koronavirus epidemiyasının pik dövrlərində infarkt nəticəsində ölüm ehtimalının əvvəlki illərə nisbətən daha yüksək olduğunu göstərdi. Koronavirus pandemiyasının pik dövründə, xəstəliyə yoluxma qorxusu səbəbi ilə ürək xəstəliklərinə görə xəstəxanalara müraciətlərdə yüzdə 20 azalma oldu. Pandemiyanın sabit dövrlərində xəstəxanaya müraciətlərin yenidən artmağa başladığı, infarkt keçirən xəstələrin daha gənc olduğu və infarktdan ölüm nisbətinin əvvəlki dövrlərə nisbətən 2,4 dəfə çox olduğu müşahidə edilib.

İnfarkt keçirən xəstələrin sayında artım müşahidə olunur

Növbəti illərdə ağır infarkt keçirən xəstələrin sayında artım gözlənilə bilər. İnfarkt keçirən xəstə qrupunda peyvənd və Covid-19 infeksiyası riskini azaltmaq vacibdir. İnfarkt əlamətləri ola biləcək sinədəki təzyiq, sıxılma, tərləmə, ürək döyüntüsü, ürək bulanması və qusma kimi şikayətlər nəzərə alınmalıdır. Əgər əlamətləriniz varsa, vaxt itirmədən, sosial məsafə qaydalarına riayət edərək və maska ??taxaraq xəstəxanalara müraciət etməlisiniz.

İnfarkt əlamətləri sezildikdə, ediləcək vacib şeylər:

**1.** Təcili yardıma zəng etmək.

**2.** Mümkünsə, adama aspirin verilməli və çeynənməlidir.

**3.** Şəxs oturmalı və ya uzanıq halda olmalıdır.

**4.** Paltar dardırsa, düymələr açılmalıdır.

**5.** Xəstənin dərindən və yavaş nəfəs almasına icazə verilməlidir.

**6.** Şəxsin dil altı həbi varsa, zamandan qənaət etmək üçün istifadə edilə bilər.

**7.** Xəstəni öskürtmək də ürək döyüntüləri üçün faydalı ola bilər.

8. İnfarkt keçirmiş bir insana tək qoyulmamalı, vaxt itirməməli, ağız vasitəsilə olan dərmandan başqa bir şey verilməməlidir.

***Ayşən Vəli***

# Jirinovski: "Ərdoğan Qarabağda bizə mane olur"



"Onu (Rəcəb Tayyib Ərdoğan - red.) sakitləşdirməyin vaxtı gəlib. Şərqin yalanını göstərmək üçün təcili olaraq "Çingiz xandan Ərdoğana" adlı broşürlər buraxmaq lazımdır". SİA xəbər verir ki, bu sözləri Rusiya Liberal Demokrat Partiyasının (RLDP) sədri Vladimir Jirinovski Ərdoğanın Krımla bağlı açıqlamasını şərh edərkən deyib.

"Bir əlində gül, kökə verirlər, digər əldə isə xəncər, əyri xəncər. Ərdoğan Liviya, Suriya, Azərbaycan və Ukraynada Rusiyanın "fırlanan çarxını" dayandırır. O, Ukrayna, Liviya və Qarabağda bizə mane olur", - deyə Jirinovski bildirib. Partiya lideri əlavə edib ki, Türkiyənin digər ölkələrə yerləşdirdiyi silahlardan dolayısı Rusiya əsgərləri ölür.

# Azərbaycanda 2 317 nəfər COVID-19-a yoluxub




Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 2 317 yeni yoluxma faktı qeydə alınıb, 2 109 nəfər müalicə olunaraq sağalıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 36 nəfər vəfat edib.

# 44 günlük şanlı Zəfər - Zəngəzur dəhlizinə gedən tarixi layihəni reallaşdıran amil





*Azərbaycan Prezidenti Ermənistana çıxış yolunu göstərdi: "Zəngəzur dəhlizi təkcə Azərbaycan və Türkiyəyə deyil, ümumilikdə region ölkələrinin hər birinin maraqlarını təmin edəcək layihədir"*



Prezident İlham Əliyev 10 noyabr bəyanatında "Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsi" olaraq qeyd olunan və Naxçıvan dəhlizi dediyimiz dəhlizi Zəngəzur dəhlizi adlandırdı. Bu, bir tərəfdən Zəngəzurun tarixi torpaqlarımız olduğunun mesajıdır, digər tərəfdən gələcək hədəflərimizi müəyyən edir. Hələ 2019-cu ildə Türk Konseyinin Bakıda keçirilən Zirvə görüşündə Prezident İlham Əliyev "Zəngəzur türk coğrafiyasının bölünməsinin əsas nöqtəsidir" deyə bəyan etmişdi. Bu, türk dünyasını Ermənistanın işğalçılıq siyasətinə qarşı birləşdirmək addımı idi. Həmin il "Qarabağ Azərbaycandır və Nida" bəyanatı, Qaregin Njde üzərindən edilən manevrlər və Türk Konseyindəki mesaj hesab etməyə imkan verirdi ki, 1920-ci ildə - Azərbaycanın qədim diyarı olan Zəngəzurun Ermənistana verilməsinin 100 illiyində ciddi dəyişikliklər ola bilər. Belə də oldu. 2020-ci ildə Azərbaycan 44 gün davam edən Vətən müharibəsi ilə işğal altındakı ərazilərini azad etdi, həm də Naxçıvanı Azərbaycana birləşdirilən dəhlizin inşası üzərində razılıq əldə olundu.

Üçtərəfli bəyannamənin 9-cu maddəsində qeyd edilir ki, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa olunmalıdır. Və tarixi Azərbaycan torpağı Zəngəzurdan keçdiyinə görə Zəngəzur dəhlizi adlandırılan bu strateji yol bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin blokadadan çıxarılmasına xidmət edəcək. Fəaliyyətə başlayacaq Zəngəzur dəhlizi eyni zamanda Azərbaycanla Türkiyə arasında məsafəni 400 kilometr qısaldacaq. Bu isə həm xərclərin azalması, həm də ticarətlə məşğul olanlar arasında rəqabət imkanlarının genişlənməsi deməkdir. Həmçinin, bu dəhlizin enerji və ticarət yollarını kökündən dəyişməklə Azərbaycana çoxlu sayda divident qazandıracaq.

## "Zəngəzur koridoru Türkiyənin razılığı və iştirakı olmadan açıla bilməz"

"Ermənistanda çoxlu ideoloji doqmalar var və Türkofobiya artıq milli siyasət olub, onlar hətta reallıq hissini də itiriblər. Bildiyim qədərilə Türkiyə hökuməti çox konstruktiv yolla addımlar atmağı planlaşdırır, ancaq, əlbəttə, onlar adekvat cavab verməlidirlər. Ermənistan ilk olaraq nə etməlidir? Onlar Türkiyəyə qarşı ərazi iddialarından əl çəkməlidirlər, Konstitusiyanı yenidən yazmalıdırlar, yeni Konstitusiya qəbul etməlidirlər. Mən onlara Türkiyəyə olan ərazi iddialarını Konstitusiyadan çıxarmaq üçün yaxşı məsləhət verə bilərəm. İnanmıram ki, hansısa ölkənin Konstitusiyasında başqa ölkəyə qarşı ərazi iddiaları var. Düşünürəm ki, bu, çox qeyri-adi haldır".

Bunu Azərbaycan Prezidenti İlham Əliyev bu gün ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: Münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı konfransda çıxışında deyib.

Dövlət başçısı ermənilərin qondarma "soyqırım"la əlaqəli saxta tarixlərinin gerçəkliklə heç bir əlaqəsi olmadığını bildirib: "Bu müharibə idi, insanların bir-biri ilə, ölkələr bir-biri ilə vuruşduğu bir vəziyyət idi, ancaq sonra barışıq oldu. O dövrdə Ermənistanın təkcə Osmanlı İmperiyası ilə deyil, digər qonşularla da çətinlikləri var idi. Türkiyə hökuməti bir neçə dəfə bu məsələyə obyektiv, qərəzsiz baxmaq üçün birgə tarixçi qrupların yaradılmasını açıq şəkildə təklif etdi. Lakin ermənilər etiraz etdi, çünki onların siyasi divident əldə etmək üçün bu saxta tarixə ehtiyacları var. Bildiyiniz kimi, bu gün biz əlaqələrin, xüsusilə də Zəngəzur dəhlizinin açılmasını müzakirə edirik. Zəngəzur koridoru Türkiyənin razılığı və iştirakı olmadan açıla bilməz. Türkiyə üç ölkənin baş nazir müavinləri səviyyəsində üçtərəfli işçi qrupunun iştirakçısı deyil. Ancaq müzakirə etdiklərimiz məsələlərə dair Türkiyəyə tərəfimizdən məlumat verilir. Ermənistan əlaqələrlə bağlı çətinliklərə son qoymaq, tranzit ölkəyə çevrilmək istəyirsə, bunu yalnız Türkiyə təmin edə bilər. Ermənistan tranzit ölkəyə çevrilmək üçün hər hansı fürsət istəyirsə, ünsiyyətdəki çətinliklərə son qoymaq istəyirsə, bunu yalnız Türkiyənin təmin etməsi mümkündür. Bildiyim qədərilə Türkiyə hökuməti buna hazırdır. Top yenidən Ermənistan tərəfindədir".

## Prezident İlham Əliyevdən düşmən ölkəni silkələyəcək sözlər...

Prezident İlham Əliyev çıxışı zamanı bildirib ki, gənc nəsil bu gün Zəngəzurun tarixi Azərbaycan ərazisi olmasını bilsin: "Azərbaycan tarixini silmək istəyənlər belə öyrədilib ki, guya onlar qəhrəmandırlar, əslində isə cinayətkardırlar. Azərbaycanlıları qətlə yetirən, soyqırımı törədən Şaumyan və digərləri. Başqa misallar da var. Beləliklə, biz istəyirik ki, gənc nəsil Zəngəzurun tarixi Azərbaycan ərazisi olmasını bilsin".

Zəngəzurun qədim Azərbaycan ərazisi olduğunu vurğulayan Prezident İlham Əliyev deyib: "Zəngəzur 1920-ci ildə, 101 il bundan öncə Ermənistana verilib. Ondan əvvəl bu ərazi bizə məxsus idi. Mən Göyçə deyərkən, onlar hazırda Sevan gölü adlandırırlar. Bu, bir həqiqətdir. XX əsrin əvvəllərindəki xəritəyə baxmaq kifayətdir. Siz oraya baxarkən Sevan görməyəcəksiniz. Siz orada Göyçəni görəcəksiniz. İrəvanla bağlı da eyni məsələdir. Onlar İrəvanın tarixi hissəsini dağıdıblar. Bu, aydın faktdır, mənim əcdadlarım daxil olmaqla, azərbaycanlılar orada yaşayıblar".

Azərbaycan Prezidenti onu da qeyd edib ki, bu, faktdır. Lakin bu, o demək deyil ki, bizim ərazi iddialarımız var: "Mən demişəm, bəli, biz oraya qayıdacağıq. Mən deməmişəm ki, biz oraya tankla qayıdacağıq. Mən demişəm biz qayıdacağıq. Bu o deməkdir ki, niyə də yox. Əgər biz Zəngəzur dəhlizinə qayıdırıqsa, əgər biz bu yolu istifadə ediriksə, niyə də biz İrəvana qayıtmayaq. Zaman gələcək, biz bunu edəcəyik. Mən mövqeyimi təqdim edirəm".

Dövlət başçısı qeyd edib ki, bu, faktdır: "Lakin bu, o demək deyil ki, bizim ərazi iddialarımız var. Mən demişəm, bəli, biz oraya qayıdacağıq. Mən deməmişəm ki, biz oraya tankla qayıdacağıq. Mən demişəm biz qayıdacağıq. Bu o deməkdir ki, niyə də yox. Əgər biz Zəngəzur dəhlizinə qayıdırıqsa, əgər biz bu yolu istifadə ediriksə niyə də biz İrəvana qayıtmayaq. Zaman gələcək, biz bunu edəcəyik. Mən mövqeyimi təqdim edirəm".

Prezident İlham Əliyev Türkiyə ilə Ermənistan arasında sərhədlərin açılmasının, ümumiyyətlə, Ermənistanın regionda normal dövlət kimi mövcud olmasının şərtini açıqlayaraq bildirib ki, kommunikasiyaların bərpası və Zəngəzur dəhlizinin işə düşməsidir.

Qeyd edək ki, bu məsələ 10 noyabr bəyanatında, o cümlədən, 11 yanvar Moskva bəyanatında əksini tapır. Kommunikasiyanın bərpasında Azərbaycan və Türkiyənin əsas istəyi Zəngəzur dəhlizinin açılmasıdır. Üçtərəfli razılaşmalara imza atan Ermənistan tərəfinin bu məsələyə manelər törətmək istəkləri müşahidə olunur. Hərçənd, Azərbaycan Prezidentinin bəyan etdiyi kimi, Türkiyə ilə sərhədin açılmasının, bölgənin iqtisadi dividendlərindən yararlanmağın yeganə yolu budur.

Bir sözlə, bu dəhliz Vətən müharibəsində qazandığımız tarixi uğurlarımızdan biridir və Zəngəzur layihənin reallaşması bölgənin təhlükəsizliyinə, iqtisadi inkişafına və rifahına səbəb olacaq.

**RƏFİQƏ KAMALQIZI**

# Vüqar Rəhimzadə: “Prezidentimiz bütün nitqlərində qəti mövqe ortaya qoyan qalib Lider kimi çıxış edir”

*“Bu gün böyük qürur hissi ilə qeyd edirik ki, Azərbaycan yalnız regionda deyil, dünya siyasətində yeniliklərə imza atır. Bölgədə yeni əməkdaşlıq formatlarının yaradılmasına müəlliflik edən Azərbaycan dünyaya bu reallığı da çatdırdı ki, kimin necə dərk etməsindən asılı olmayaraq beynəlxalq hüquq normaları mövcuddur. Böyüklüyündən, kiçikliyindən asılı olmayaraq hər bir dövlət bu prinsiplərə əməl etməlidir. Azərbaycan Vətən müharibəsinin davam etdiyi 44 gündə həm döyüş meydanında, həm də informasiya cəbhəsində üstünlük qazanaraq ermənilərin və onlara havadarlıq edən bəzi dövlətlərin və beynəlxalq təşkilatların illərdir yalan üzərində qurulan təbliğatlarını alt-üst etdi.*



Dövlətimizin başçısı İlham Əliyev istər Vətən müharibəsinin gedişi dövründə dünyanın nüfuzlu mətbu orqanlarına soxsaylı müsahibələrində, istər bu il fevralın 26-da yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında, istərsə də aprelin 13-də ADA Universitetində keçirilən “Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq” adlı beynəlxalq konfransda sualları cavablandırarkən ilk öncə hərbi əməliyyatların başlama səbəbləri barədə məlumat verdi, Ermənistanın dinc əhaliyə qarşı müharibə apardığını faktlar əsasında göstərdi, Azərbaycan Ordusunun uğurları barədə danışaraq ölkəmizin ərazi bütövlüyünün bərpasının prioritetliyini açıqladı, Azərbaycanın apardığı mübarizənin haqq mübarizəsi olduğunu diqqətə çatdırdı. Ümumiyyətlə, möhtərəm Prezidentimiz bütün nitqlərində ölkəmizin mövqeyini aydın şəkildə ifadə edir, fikirlərinin reallıqlara əsaslandığına əmin olan, qəti mövqe ortaya qoyan qalib Lider kimi çıxış edir. Məhz bu reallıqlar fonunda ADA Universitetində keçirilən “Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq” adlı beynəlxalq konfransda dövlətimizin başçısına ünvanlanan suallarda bu ümumiləşdirmə öz əksini tapmışdır ki, Azərbaycan innovasiya, texnologiya və taktika ilə yanaşı, misilsiz cəsarət nəticəsində həlledici Qələbə qazanıb. Azərbaycan müharibənin hərbi fazasını Şuşadakı Qələbəsindən sonra dayandırmaqla strateji baxış nümayiş etdirib. Müharibə zamanı vurğulanan hədəflər illər boyu aparılmış danışıqların əsas mahiyyətini özündə ehtiva etmişdir. Reallıq budur ki, Ermənistan münaqişənin dinc yolla həllini qəbul etmədi və nəticədə həm regionda qanlı müharibəyə bais oldu, həm də Azərbaycanla savaşda biabırçı məğlubiyyətə uğradı”. Bu fikirləri “İki sahil” qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, bu gün artıq Azərbaycan münaqişə səhifəsini bağlanmış hesab edir, regionda daimi sülhün və təhlükəsizliyin təmin olunması üçün yeni əməkdaşlıq formatlarının təşəbbüskarı kimi çıxış edir: “Prezident İlham Əliyev aydın şəkildə bəyan edir ki, Azərbaycanın mövqeyi beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə və problemə praqmatik yanaşmaya əsaslanır. Azərbaycan münaqişənin davam etdiyi 30 ilə yaxın müddətdə heç bir halda ərazi bütövlüyünün pozulmasına və Dağlıq Qarabağın müstəqilliyinə razı olmayıb və olmayacaqdı. Bununla yanaşı, dövlətimizin başçısı gələcəkdə Dağlıq Qarabağın ərazisində azərbaycanlıların və ermənilərin sülh şəraitində birgə yaşamasının təmin edilməsi üçün körpülərin qurulması istiqamətində zəruri addımların atılmasının vacibliyini bildirir. Cənab İlham Əliyev qeyd olunan konfransda Azərbaycanın müharibə zamanı davranışının Ermənistan tərəfindən düzgün qiymətləndirilməsi ilə bağlı sualı cavablandırarkən bildirmişdir ki, xeyr və bu, çox təəssüf doğuran haldır. “Biz münaqişədən sonrakı inkişafdan danışırıq və gələcək barışığa apara biləcək müəyyən elementlər üzərində diqqətimizi cəmləşdirməliyik” söyləyən ölkə Prezidenti onu da əlavə etmişdir ki, lakin Ermənistanda o qədər uzun müddət dövründə Azərbaycana qarşı demonizasiya siyasəti, uydurmalar, azərbaycanlıların düşmən, Azərbaycanın isə sanki Ermənistanı və Qarabağı işğal edən formada təqdimatı hökm sürüb ki, cəmiyyətin bunun əksini dərk etməsi üçün vaxt tələb olunacaq. Erməni cəmiyyətinin dəmir pərdəni dağıtmağa ehtiyacı var. Onlar dəmir pərdə arxasında yaşayır və bu zəhərli ideyaların təsiri altındadırlar. Azərbaycan bu işdə onlara kömək etməyə hazırdır.

Obyektivlik, qərəzsizlik prinsiplərinə söykənərək əksər media orqanlarının təmsilçilərinin suallarında da bu həqiqət öz əksini tapmışdır ki, Ermənistan özü kiçikdir, əhalisi azdır və hətta öz ərazisini məskunlaşdırmaqda belə çətinliklə üzləşir. Bu fonda böyük ərazilərlə bağlı iddialar, əlbəttə ki, ciddi suallar doğurur”.

Baş redaktor bildirib ki, Prezident İlham Əliyev beynəlxalq auditoriyada, xarici mediada Dağlıq Qarabağın və münaqişənin tarixi haqqında yanlış fikirlərin və fərqli yanaşmaların olduğunu nəzərə alaraq, faktlar əsasında tarixi gerçəklik barədə qısa, lakin müfəssəl məlumat verərək hazırkı postmüharibə dövründə əməkdaşlıq əlaqələrinin qurulması üçün geniş imkanların mövcudluğunu diqqətə çatdırmışdır.

V.Rəhimzadə bildirib ki, möhtərəm Prezidentimiz İlham Əliyev Azərbaycanın milli maraqlarını müdafiə etməyin, münaqişə və ölkəmiz haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasının parlaq nümunəsini ortaya qoyur: “Dövlətimizin başçısının bu yanaşması vətənpərvərliyin, ali vəzifə kimi Azərbaycanın milli maraqlarının müdafiəsi və təbliğinin hər bir vətəndaş üçün prioritet vəzifə olduğunu aydın şəkildə nümayiş etdirir. Bir sözlə, dövlətimizin başçısı İlham Əliyevin müsahibələrinin, çıxışlarının fonunda beynəlxalq auditoriya Azərbaycan rəhbərinin simasında təcrübəli, gözəl nitq qabiliyyətinə malik, fikirlərini yüksək səviyyədə, məntiqi ardıcıllıqla çatdıran və izah edən, özünə güvənli, dünya səviyyəli Lider görür. Prezident İlham Əliyevin Vətən müharibəsi dövründə dünyanın 30-a yaxın aparıcı media qurumlarına müsahibələri və müxtəlif beynəlxalq tədbirlərdə videoformatda çıxışları, bəyanatları, xarici jurnalistlərlə 4 saatlıq mətbuat konfransı, aparıcı beyin mərkəzlərinin nümayəndələri ilə görüşü, habelə mühüm beynəlxalq platformalarda nitqləri, müzakirələrdə iştirakı aydın göstərir ki, o, təkcə dövlət idarəçiliyi, daxili və xarici siyasət məsələlərinə deyil, həm də dövlətin informasiya siyasətinə yeni strateji baxış nümayiş etdirir”.

“Prezident İlham Əliyevin yeni informasiya strategiyası şəffaflıq, obyektivlik, sistemlilik, operativlik kimi prinsiplərə əsaslanır, milli maraqların müdafiəsi, ölkə həqiqətlərinin müasir üslubda dünya ictimaiyyətinə çatdırılması, cəmiyyətin hərtərəfli məlumatlandırılması, ictimai rəyə hörmət amilləri üzərində qurulub” söyləyən baş redaktor vurğulayıb ki, cənab İlham Əliyev hər zaman hücum diplomatiyasının davam etdirilməsini qarşıya əsas hədəf kimi qoyur. Dünyada ermənilərin, ermənipərəst qüvvələrin, ölkəmizin uğurlarını həzm etməyən anti-Azərbaycan dairələrin dezinformasiyalarına, əsassız iddialarına qarşı həqiqətlərimizi qoymalı, faktlara əsaslanan təbliğatımızla bu cəhdlərin qarşısını almalıyıq. Azərbaycan bunun üçün bütün imkanlardan maksimum istifadə edir. Dost və qardaş ölkələr olan Azərbaycanla Türkiyə arasında media sahəsində əməkdaşlıqla bağlı Anlaşma Memorandumunun imzalanması, Türk Şurasının informasiya və media üzrə məsul nazirlərinin, yüksək səviyyəli rəsmilərinin 3-cü toplantısı çərçivəsində müzakirələrdə hazırkı dövrün reallıqlarının düzgün dəyərləndirilməsi üçün birgə addımların atılmasına böyük ehtiyacın olduğunun bildirilməsi də bunun təsdiqidir. Birmənalı şəkildə demək olar ki, istər müharibə dövründə, istərsə də postmünaqişə mərhələsində cənab İlham Əliyevin informasiya sahəsində fəaliyyəti Ermənistan və erməni lobbisinin, Azərbaycanı istəməyən xarici qüvvələrin tərksilah edilməsində, beynəlxalq ictimaiyyətin obyektiv məlumatlandırılmasında mühüm rol oynayır. Azərbaycanın diplomatik mübarizədə qələbəsi döyüş meydanında Zəfərini şərtləndirən amillər sırasındadır.

## Hasan Ünal: Azərbaycan Ordusu çox böyük uğura imza atıb



Həqiqətən də Azərbaycan Ordusu çox böyük uğura imza atıb. Erməni ordusuna məxsus çox sayda hərbi texnika, tank, ağır silahlar qənimət kimi ələ keçirilib. AZƏRTAC xəbər verir ki, bu fikirləri aprelin 13-də Bakıda Hərbi Qənimətlər Parkı ilə tanışlıq zamanı Maltəpə Universitetinin professoru Hasan Ünal deyib. Professor bildirib ki, Hərbi Qənimətlər Parkında dronlar tərəfindən məhv edilən tanklar, ağır silahlar və zirehli maşınlar var. Bu, Azərbaycanın Zəfərinin, əslində, nə qədər böyük olduğunu göstərir. Belə ki, İkinci Dünya müharibəsində yaşananları xatırlasaq, işğal altındakı torpaqlarını müasir silahlardan istifadə edərək, mülki insanlara maksimum şəkildə zərər vermədən 44 gündə möhtəşəm uğura imza ataraq geri qaytara bilən ikinci dövlət yoxdur.

“Eyni zamanda, bu Qələbə Azərbaycan üçün böyük psixoloji üstünlükdür. İllər idi ki, ermənilər öz ordularının məğlubedilməzliyi ilə bağlı mif yayırdılar. Bunun doğru olmadığı üzə çıxdı. Hazırda Ermənistan buna görə də böyük travma yaşayır. Bu travma çox güman ki, hələ uzun çəkəcək. Azərbaycan lazımi addımlar atır, bölgədə əməkdaşlığı inkişaf etdirir. Ermənistan adekvat tədbirlər görməsə də, Azərbaycan öz yoluna davam edəcək və rəsmi İrəvanı gözləməyəcək”, - deyə Hasan Ünal bildirib.

## Azərbaycanda COVID-19 əleyhinə peyvənd olunanların sayı açıqlanıb




Azərbaycanda son sutkada koronavirus (COVID-19) əleyhinə 28 600 vaksin vurulub. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya verilən məlumata görə, bir gündə birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 23 891, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 4709 nəfərdir. Ölkədə vurulan vaksinlərin ümumi sayı 1 271 781, birinci mərhələ üzrə vaksinasiya olunanların ümumi sayı 837 304, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı isə 434 487 təşkil edir.

## Azərbaycan əhalisi 10 milyard manatı nəyə xərcləyib?



2021-ci ilin yanvar-mart aylarında Azərbaycanda pərakəndə ticarət şəbəkəsində istehlakçılara 9,5 milyard manatlıq, o cümlədən 5,2 milyard manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 4,3 milyard manatlıq qeyri-ərzaq malları satılıb. SİA-nın məlumatına görə, 2020-ci ilin yanvar-mart ayları ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 1,1 faiz, o cümlədən qeyri-ərzaq malları üzrə 4,7 faiz azalıb, ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə isə 2,1 faiz artıb.

Hesabat dövründə alıcıların son istehlak məqsədilə aldıqları mallara xərclədiyi vəsaitin 48,6 faizi ərzaq məhsullarının, 5,8 faizi içkilər və tütün məmulatlarının, 16,4 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 5,4 faizi avtomobil benzini və dizel yanacağının, 5,0 faizi elektrik malları və mebellərin, 2,2 faizi əczaçılıq məhsulları və tibbi ləvazimatların, 0,7 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 15,9 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunub.

2021-ci ilin yanvar-mart aylarında istehlak məhsullarının dəyər ifadəsində 25,8 faizi ticarət müəssisələri, 50,1 faizi fərdi sahibkarlar tərəfindən, 24,1 faizi isə bazar və yarmarkalarda satılmışdır. 2020-ci ilin yanvar-mart ayları ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə müəssisələr üzrə 7,3 faiz, fərdi sahibkarlar üzrə 3,7 faiz artmış, bazar və yarmarkalarda isə 16,3 faiz azalıb. Hesabat dövründə ticarət şəbəkəsində bir ölkə sakini orta hesabla ayda 318,1 manatlıq, o cümlədən 172,9 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 145,2 manatlıq qeyri-ərzaq malları alıb.

# Azərbaycan idman ölkəsidir

## *Prezident İlham Əliyev futbol üzrə Avropa çempionatının 4 oyununun Bakı şəhərində keçirilməsi ilə əlaqədar bəzi tədbirlər haqqında Sərəncam imzalayıb*

***Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə, ölkə həyatının bütün sahələrində olduğu kimi, idmanın inkişafına yönəlmiş qərarların qəbulu, tədbirlərin reallaşması idman sahəsində ölkəmizin yüksək beynəlxalq nüfuz qazanmasına səbəb olub. Azərbaycanda keçirilən dünya və Avropa çempionatları sübut edir ki, həqiqətən də, Azərbaycanda idman sürətlə inkişaf edir. Ölkəmizin, ardıcıl olaraq beynəlxalq yarışlarda iştirakı və uğurlar qazanması beynəlxalq aləmin Azərbaycandakı idman hərəkatına olan diqqətini artırıb. Əlbəttə ki, müasir dövrümüzdə idman sahəsində gerçəkləşdirilən dövlət siyasəti, Olimpiya ideallarının təbliği, müasir Olimpiya kompleksləri və digər tədbirlər nəticəsində idmançılarımızın sorağı mötəbər yarışlardan qalib kimi eşidilir.***



Respublikamızın artan potensialı nəticəsində son illər Azərbaycanda beynəlxalq miqyaslı tədbirlər, o cümlədən bir çox idman növləri üzrə dünya və Avropa çempionatları, dünya kuboku və Qran-Pri yarışları keçirilmişdir. Belə ki, Birinci Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına, 42-ci Ümumdünya Şahmat Olimpiadasına, eləcə də Avropa, dünya çempionatlarına yüksək səviyyədə ev sahibliyi etmiş Azərbaycanda belə yarışların keçirilməsi onu göstərir ki, Azərbaycan dünyanın qabaqcıl idman ölkələri sırasında öz layiqli yerini tutub. Ölkəmizin mötəbər idman yarışlarını keçirməsinin arxasında da məhz Azərbaycanın inkişafı, müasir infrastrukturu və təhlükəsiz ölkə olması amili dayanır. Aprelin 13-də Prezident İlham Əliyev 2021-ci ildə futbol üzrə Avropa çempionatının 4 oyununun (üç qrup və bir 1/4 oyunu) Bakı şəhərində keçirilməsi ilə əlaqədar bəzi tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, oyunlarla əlaqədar ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər mayın 1-dən iyulun 5-dək Azərbaycanın dövlət sərhədindən buraxılış məntəqələrində viza ala bilərlər.

Oyunların təşkili və keçirilməsi ilə bağlı Azərbaycanda əmək fəaliyyətinə cəlb edilən və müvafiq qaydada akkreditasiyadan keçmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün iş icazəsinin alınması tələb olunmur.

Oyunların Bakı şəhərində keçirilməsi üzrə Təşkilat Komitəsinin və ya Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) rəsmi dəvət məktubu, Avropa Futbol Assosiasiyaları Birliyinin (UEFA) müvafiq qaydalarına uyğun olaraq akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı və ya digər sənəd, Bakı şəhərində keçiriləcək oyunlarda iştirak edən futbol komandalarının təmsil etdikləri ölkələrin vətəndaşları və həmin ölkələrdə daimi yaşayan vətəndaşlığı olmayan şəxslər üçün oyuna bilet və ya biletin əldə olunmasını təsdiqləyən sənədlərdən biri viza verilməsi üçün əsas hesab edilir.

Sərəncamda qeyd olunur ki, Xarici İşlər Nazirliyi oyunlarla əlaqədar Azərbaycana gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə "Elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və "ASAN Viza" sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 iyun tarixli 923 nömrəli Fərmanının 4.2-ci bəndinə əsasən təsdiq edilmiş ölkələrin siyahısı üzrə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə Avropa Futbol Assosiasiyaları Birliyinə (UEFA) və xarici ölkələrin müvafiq orqanlarına məlumat verməlidir. Onların "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə məlumatın nazirliyin, habelə Azərbaycanın xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin etməlidir.

### İLİN BÜTÜN FƏSİLLƏRİNDƏ YERLİ VƏ BEYNƏLXALQ YARIŞ VƏ MƏŞQLƏRİN KEÇİRİLMƏSİ ÜÇÜN İDEAL MƏKAN

İdman ölkəsi kimi tanınan ölkəmizdə müasir tələblərə cavab verən möhtəşəm idman qurğuları fəaliyyət göstərir. 2015-ci ildə istifadəyə verilən Bakı Olimpiya Stadionu 68 min tamaşaçı tutumuna malikdir. Beynəlxalq standartlara tam cavab verən stadionda müxtəlif funksiyalı tribunalar, qaçış zolağı və digər infrastruktur yaradılıb. Əsas və köməkçi stadionlardan, həmçinin mexaniki binadan ibarət olan stadionda əlil tamaşaçılar, VVIP, VIP, CIP və media bölmələri mövcuddur. Birinci Avropa Oyunlarının təntənəli açılış və bağlanış mərasimləri, eləcə də, atletika yarışları məhz bu stadionda təşkil olunub. Bakı Tennis Akademiyası da Azərbaycanda bu tipdə inşa edilmiş ilk idman qurğusudur. İlin bütün fəsillərində yerli və beynəlxalq yarış və məşqlərin keçirilməsi üçün müasir tələblərə cavab verən istilik və havalandırma sistemi quraşdırılıb. Bakı Tennis Akademiyasının ərazisində idman hovuzu və məşq zalı da istifadəyə verilib. Bundan başqa 3 min tamaşaçı tutan mərkəzi universal stadion inşa olunub. Stadionda tennislə yanaşı, voleybol, mini-futbol, basketbol, həndbol, çimərlik voleybolu, güləş, boks və idmanın digər növləri üzrə ən mötəbər çempionatlar və turnirlər keçirmək mümkündür.

Təşkilatçılıqla yanaşı, ölkələrin idman sahəsində qazandıqları nəticələr də çox vacib amillər sırasındadır. Sevindirici haldır ki, idmançılarımız həmişə onlara göstərilən etimadı doğruldublar. Sidney görüşü ölkəmizə 2 qızıl, 1 bürünc medal qazandırdı. Afinadan Azərbaycana 5 medalla qayıdan idmançılarımız Pekin yarışlarında 1 qızıl, 2 gümüş, 4 bürünc medalla pərəstişkarlarını sevindirdilər. Azərbaycana uğur gətirməklə idmançılarımızın dünya birliyində tanınmasına səbəb olan London XXX Yay Olimpiadası daha uğurlu oldu. Belə ki, qaliblər üçün nəzərdə tutulan medallardan 2 qızıl, 2 gümüş, 4 bürünc qazanmaqla ölkəmizə 10 medalla döndülər. Çində keçirilmiş yeniyetmələrin Yay Olimpiya Oyunlarında gənclərimiz əlavə aktivlər qazandılar. Bu kimi tarixi nailiyyətlər gənclərimizin idmana maraq və həvəsini daha da artırdı. Azərbaycana 56 medal qazandıran Birinci Avropa Oyunları bir daha təsdiqlədi ki, ölkəmizdə perspektivli, güclü idmançılar nəsli yetişməkdədir. Azərbaycana "Bakı- 2017" İslam Həmrəyliyi Oyunlarının qalibi adını qazandıran amillər, bu sahədə qazanılan zəngin təcrübənin özünü doğrultduğunu göstərdi. MDB ölkələri zəhmətkeşlərinin beynəlxalq V İdman Oyunlarında Azərbaycan idmançıları 37 medal - 9 qızıl,12 gümüş və 16 bürünc medal qazandılar.

Paytaxtımızda start götürmüş elit yarışmalarından olan "Formula-1"-ə ölkəmizin ev sahibliyi etməsi dünyanın idman arenalarında artıq özünə layiqli yer tutan Azərbaycanın iqtisadi gücünü, inkişafını, qonaqpərvərliyini, multikultural dəyərlərini bir daha dünyaya nümayiş etdirmiş oldu. Xatırladaq ki, Formula 1 yarışları Bakıda 2016-cı ildən keçirilir. Bakının "Formula-1" kimi mühüm yarışı da yüksək səviyyədə təşkil etməsi bir daha Azərbaycanın idman dövləti olduğunu, bu missiyanın ölkəmizin timsalında hər zaman özünü doğrultduğunu təsdiqləmiş oldu. Formula-1" yarışlarının Bakı mərhələsi dünyada böyük maraq yaratdı. Uzunluğu 6 kilometr, ümumu məsafəsi isə 306 kilometr olan Bakı treki ən sürətli yarışlar kateqoriyasına daxildir.

Bildiyimiz kimi, Formula 1 Azərbaycan Qran-Prisinin təqvimi artıq bəllidir. İyunun 4-6-da 5-ci dəfə keçiriləcək Formula 1 Azərbaycan Qran-Prisi Bakı şəhər halqasında start götürəcək.

Bütün bunlar, Prezident İlham Əliyevin idmanın inkişafına və yetişməkdə olan gənc nəslə göstərdiyi xüsusi diqqət və qayğısının real və əyani təcəssümüdür. Azərbaycanın mötəbər idman yarışlarına müvəffəqiyyətlə ev sahibliyi etməsi də bu sahənin, eləcə də həmin idman növlərinin inkişafına, idmanın kütləviliyinin təmin olunmasına xidmət edir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# ABŞ Rusiyaya qarşı yeni sanksiyalar tətbiq etdi



ABŞ Rusiyaya qarşı yeni sanksiyalar tətbiq edib. SİA RenTV-yə istinadən xəbər verir ki, müvafiq sənədi Amerika Prezidenti Co Bayden imzalayıb və bu barədə Ağ Ev bəyan edib.

"Bu gün Co Bayden rəhbərliyi, hökuməti və kəşfiyyat xidmətlərinin ABŞ-ın suverenliyinə və mənafeyinə qarşı hərəkətlərinə görə Rusiyaya qarşı hərəkətə keçir", deyə bildirilir. Bundan əlavə, ABŞ səlahiyyətliləri 10 rus diplomatı qovmaq qərarına gəliblər. Eyni zamanda, Federasiya Şurası Beynəlxalq İşlər Komitəsi sədrinin birinci müavini Vladimir Cabarovun dediyinə görə, Rusiya bu addımı güzgü şəklində cavablandıracaq.

Xatırladaq ki, bir qədər əvvəl CNN öz mənbələrinə istinadən Rus diplomatlarının Vaşinqton və Nyu-Yorkdan çıxarılması və sanksiyaların tətbiq olunması barədə xəbər vermişdi. Bloomberg, Rusiyaya qarşı məhdudiyyətlərin "gələcək kiberhücumlara qarşı təsirli bir çəkindirmə məqsədi daşıyacağını" açıqlayıb. Bunun səbəbi, SolarWinds proqramına edilən haker hücumuna və ABŞ-da prezident seçkilərinə müdaxiləyə görə Rusiyanın məsuliyyət daşıdığına dair şübhələr idi. Rusiya tərəfi isə dəfələrlə bu cür ittihamları rədd edib. Görünür ABŞ tərəfi də öz bildiyindən və məqsədlərindən əl çəkmir.

***İnam Hacıyev***

## Daha bir şəhid övladının adına hesab açılacaq



"YAŞAT" Fondunun Vətən müharibəsindən sonra dünyaya gələn şəhid övladları üçün layihəsi davam edir. Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən SİA-ya verilən məlumata görə, daha bir şəhidimiz Kamran Kazımovun yeni doğulan övladı Kamranın zəruri xərcləri Fond tərəfindən qarşılanıb. Bu məqsədlə 1000 AZN anaya təqdim olunub və dünyaya yeni göz açan körpənin adına 5000 AZN-lik hesab açılacaq. Həmin hesaba vəsait Fonda edilən ianələr hesabına toplanmış məbləğdən köçürülür. Həmin məbləğin üzərinə mütəmadi olaraq faiz toplanılacaq və həmin şəhid övladı 18 yaşına çatdıqdan sonra toplanan məbləği özü hesabından çıxara biləcək.

Qeyd edək ki, bankla ana arasında bağlanmış müqaviləyə əsasən bəzi zəruri hallarda ana həmin vəsaiti daha tez çıxara biləcək. Həmçinin ana həmin məbləği istənilən valyutaya da dəyişə bilər. Allah şəhidimizə rəhmət etsin!

# Alexander Kaleri: “Azərbaycanın kosmik tədqiqatlarda böyük payı var”



**Rusiya Federasiyası Qəhrəmanı, təcrübəçi-kosmonavt Alexander Kaleri: “Azərbaycan Sovet kosmik proqramının banilərindən biri, general-leytenant Kərim Kərimovun simasında kosmik sənayenin inkişafına mühüm töhfə verdi?”**

Bu il, 12 aprel dünya bütün bəşəriyyət üçün əlamətdar bir tarixi-kosmosa ilk insan uçuşunun 60 ilini qeyd etdi. 1961-ci ildə Yuri Qaqarin kosmosa, ulduzlara gedən yol açdı. Və o gündən bəri yüzlərlə və minlərlə kişi və qadın onun yolunu davam etdirərək kosmosu fəth etməyə öz töhfələrini verdi. Onlardan biri də Rusiya Federasiyasının Qəhrəmanı, təcrübəçi-kosmonavt Aleksandr Kaleridir. Aleksandrın kosmik təcrübəsi, ümumi müddəti 769 gün olan 5 uçuşu və 25 saatdan çox işlədiyi 5 dəfə açıq kosmosa çıxışıdır. Moskva-Bakı portalına verdiyi müsahibədə kosmonavt uçuş zamanı meydana gələn ən dəhşətli fövqəladə vəziyyətdən danışıb. O, dostlarını, Azərbaycandan olan kosmonavtları xatırlayıb və kosmik tədqiqatlar zamanı planetimizin necə dəyişdiyini danışıb. SİA müsahibəni oxucularına təqdim edir.

**- Aleksandr Yuryeviç 60 il kosmik tədqiqat üçün çoxdur, yoxsa azdır?**

- Kosmos üçün 60 il əlbəttə ki, kifayət deyil. Ancaq insan həyatı üçün bu çox uzun bir yoldur. Artıq çox işlər görülüb, lakin bu istiqamətdə daha çox iş görülməlidir.

**- Beş kosmik uçuşunuz var. Uçuş hazırlıqları eynidir, yoxsa fərqli xüsusiyyətləri varmı?**

- Hər uçuş yeni bir vəzifə, yeni vaxt, yeni obyektlərdir. Əlbətdə ki, hər biri üçün hazırlıq fərdi bir şeydir. Təlim standartları var, amma hər dəfə yeni bir şey təqdim olunur.

**- Uçuşlar zamanı fövqəladə hallar baş verir, bizə ən çox narahat olanı deyə bilərsənmi?**

- Anormal vəziyyət onsuz da təcili vəziyyətdir. Mənim üçün ən qorxulu şey, 1997-ci ildə 2-ci uçuşumda bir oksigen mənbəyinin yanması oldu. Çox çətin bir vəziyyət idi. “Mir” orbital kompleksinin göyərtəsində 6 nəfər, 2 heyət idik. Sonra bütün heyət qəzanı aradan qaldırmaq üçün mübarizə aparmalı və uzun müddət qaz maskalarında çalışmalı oldu. Fevral ayında modullardan birində alovlanan oksigen balonu səbəbindən yanğın baş verdi və ardından oksigen istehsal sistemi sıradan çıxdı. İki “Soyuz TM” kosmik gəmisi stansiyaya bağlandı. Bu, bütün insanların təxliyə edilməsinə imkan verdi, lakin gəmilərdən birində oksigen kəsildi. Vəziyyəti atmosferin tüstü ilə doldurması daha da ağırlaşdırdı. Ancaq vəziyyətin öhdəsindən gələ bildik və hər şeyi ortadan qaldırdıq. Digər fövqəladə hallar var idi, lakin o qədər də kəskin deyildi (gülümsəyir).

**- Uçuşdan əvvəl kosmonavtların uğur üçün bir çox ümumi ənənələri var. Şəxsi şans əlamətləriniz varmı?**

- Hər kosmonavtın fərdi uğur əlamətləri var. Ancaq bunlar haqqında danışmayacağam, şəxsi işarələr olaraq qalacaqlar (gülür).

**- İlk kosmonavt korpusu təkcə uçuşlarda deyil, həm də təlim prosesində qabaqcıl idi. Və bir çox mütəxəssis, indi müasir bir kosmonavta SSRİ kosmonavtları üçün təlim proqramından keçmək üçün imkan verilsə, onu keçməyəcəklərinə inanırlar. Fikirlə razısınız?**

- Əlbətdə razıyam. Hər şeydə birinci idilər, hər şey məlum deyildi və bu səbəbdən də təlim proqramları böyük bir fərqlə idi. Yalnız sonra gəmilər daha rahat oldu və içlərindəki şərtlər daha sadə oldu. Texnika təkmilləşdirildi, astronavtlar üçün tələblər azaldı. Sergey Pavloviç Korolyev, yalnız hərbi pilotların kosmosa uçmamalı olduğunu, eyni zamanda sağlamlıqlarını saxlamağı bacaran müxtəlif profilli mütəxəssislərin də uçmalı olduğunu söyləyirdi. Buna görə gəmiləri daha da yaxşılaşdırmaq, tələbləri azaltmaq və kosmik sənayedə mütəxəssislər üçün giriş imkanlarını genişləndirmək lazımdır. Hər şey belə oldu.

**- Yuri Qaqarin sülh missiyasında bir çox ölkələrə səyahət etmişdir. O Azərbaycanda da olub, Bakıda da bu günə qədər böyüyən palma ağacları əkib. Bunu bilirdinizmi? Və siz Bakıda olmusunuz?**

- Mən tələbə və gənc mütəxəssis kimi Bakıda olmuşam. Çox gözəl bir şəhər, dost insanlar. Yuri Qaqarinin Bakıda əkdiyi palma ağacları barədə də məlumatım yox idi. Çox maraqlıdır, gedib görməli olacağam. Kosmonavt Musa Manarov da daxil olmaqla azərbaycanlı dostlarım var. Musa Bakıda anadan olub. İndi onunla qonşuyuq. İlk uçuşda mən onun dublyoru olmamışam. Uzun müddət birlikdə çalışdıq və indi dostluq münasibətlərimizi davam etdiririk. Əlbətdə ki, Azərbaycan Sovet kosmik proqramının banilərindən biri, general-leytenant Kərim Kərimovun simasında kosmik sənayenin inkişafına mühüm töhfə verdi. Uzun illər İdarəolunan uçuşlara dair dövlət komissiyasının sədri və bizim böyük nazirliyimizin rəhbəri idi. Kərim Əlieviçin töhvəsi əvəzolunmazdır, eləcə də Azərbaycan, bütün bu nailiyyətlərə sahib olmaq üçün insanlar ağıllarını, istedadlarını, potensiallarını və bacardıqlarını kosmik sənayeyə sərf edirdilər. Bütün ölkə, bütün Sovet İttifaqı bu sahə üçün çalışırdı.





**- Yer, orbitdən baxanda bir astronavtın gözü ilə necə dəyişir? Və ən gözəl yerlər haradır?**

- Bütün dünya gözəldir. Bütün qitələr fərqlidir və əla görünürlər. Bəli, planet dəyişir. Üzərində insan fəaliyyətinin izləri görünür və bu çox hiss olunur. Bunu 1992-ci ildə ilk uçuşumda hiss etdim və planetimizi xilas etmədiyimiz üçün şok oldum. Stansiyada olarkən ətrafda icazə verilən şeyin sərhədlərinin nə qədər yaxın olduğunu hiss edirsən. Və orbitdən insanın planetimizin zərərinə necə hərəkət etdiyini görə bilərsiniz. Bir çox meşələr qırılır, yandırılır, torpaq yuyulur və böyük tankerlər neft məhsullarını okeana tökür ... bir çox başqa işlər görülür. Və ilk uçuşum məni şoka saldı ... Planetdə çox gözəl yerlər var və onlar özlərinə görə heyranedicidir. Dağlar, qarlı zirvələr, səhra, Avropanın, ölkəmizin və Qafqazın gözəl mənzərəsi...

**- 60 il keçdikdən sonra indi kosmik tədqiqatı necə görürsünüz?**

- Daha geniş, daha yüksək. Yer orbitindən çıxma, Günəş sisteminin yeni aləmləri. Onlara çatacağıq və mənimsəməyə başlayacağıq. Və ən əsası, kosmosun birbirindən ayrılmamalı olduğunu, əksinə birləşdirəcəyini başa düşəcəyik. Bu, bəşəriyyətin gələcəyidir. İnsan kosmik varlıqdır və uzaq dünyalara ən yaxşı insani keyfiyyətləri- dostluq, insanlıq, sevgini gətirməlidir. Düşünürəm ki, bu mənada kosmonavtlar və kosmos özümüzü insanlıq olaraq daha yaxşı anlamağımıza və daha yaxşı olmağımıza kömək edəcəkdir (gülür).

**- İndi Yuri Qaqarinlə görüşsəydiniz, ona nə deyərdiniz və ya soruşardınız?**

- Yuri Qaqarinlə görüşsəydim, ona heyran olduğumu bildirərdim, çünki aramızda 1-ci o idi!

***Müsahibə aldı: Tatyana Novikova***

***Tərcümə etdi: Elçin Bayramlı***

# Naira Zohrabyan: “Qasparyan yalan danışırdısa, niyə tutulmadı?”



Çiçəklənən Ermənistan fraksiyasının millət vəkili Naira Zohrabyan Nikol Paşinyanın öz seçki kampaniyasına artıq dünəndən başladığını zənn etdiyini bildirib. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, millət vəkili bu barədə jurnalistlərə açıqlamasında deyib.

“Seçki kampaniyası dövründə ona veriləcək bütün sualları gizlətmək üçün Paşinyan yalan danışmağa və manipulyasiya etməyə çalışdı. Ona elə gəldi ki, bu sualların qarşısını alıb. Ancaq dünənki açıqlamalarla özünü daha bir çıxılmaz vəziyyətə saldı”, deyə Zohrabyan bildirib. Millət vəkili məsələnin, vəziyyətin sual doğurduğunu da deyib.

“Onik Qasparyan, Paşinyanın dediyi kimi yalan danışdısa və Təhlükəsizlik Şurasının iclasında belə bir açıqlama verməmdisə, onda niyə Qasparyan yalan ifadəsinə görə mühakimə olunmadı?”, deyə Çiçəklənən Ermənistan fraksiyasından olan millət vəkili sual edib. “Əgər ölkənin ali baş komandanı 44 gün ərzində generalların qorxaq, qaçaq olduğunu bildiyini etiraf edirsə, deməli müharibə dövründə o, qorxaqlıq, fərarilik və xəyanət üçün bütün məsuliyyəti onlarla birgə bölüşür”, deyə Naira Zohrabyan baş nazir Nikol Paşinyanı qorxaq, fərari və xəyanətkar adlandırıb.

Xatırladaq ki, erməni baş nazir Nikol Paşinyan Ermənistan Parlamentində son çıxışı zamanı Onik Qasparyanın ona, 44 günlük müharibənin dördüncü günündə hərbi əməliyyatları dayandırmaq kimi Ermənistanın çarəsizliyi barədə dediyini təkzib edib. Baş nazirin bu çıxışı heç də birmənalı qarşılanmayıb və ona qarşı ittihamlar durmadan artmaqdadır və Çiçəklənən Ermənistan fraksiyasından olan millət vəkilinin də ittihamları bu qəbildəndir və heç də təsadüfi deyil.

***İnam Hacıyev***

# Erməni general öldü

Ermənistan Milli Təhlükəsizlik Xidmətinin Dövlət Mühafizə Xidmətinin keçmiş rəisi general-leytenant Qraç Arutyunyan 65 yaşında ürək tutmasından ölüb. SİA “NEWS.am”a istinadən xəbər verir ki, məlumatı onun ailəsi yayıb. Keçmiş rəislə vida mərasimi aprelin 16-da Yerevandakı Surb Astvasasin kilsəsində keçiriləcək. Dəfn aprelin 17-də olacaq.



# İnsanlar "Müqəddəs Ramazan" ayından necə bəhrələnə bilər?

***Azərbaycan İlahiyyat İnstitunun müəllimi Hacı İbrahim Quliyevin Müqəddəs Ramazan ayı ilə əlaqədar SİA-ya müsahibəsini təqdim edirik.***



***- Ramazan ayının fəzilətləri və üstünlüyü barədə nə deyə bilərsiniz? Bu aydan müsəlmanlar necə bəhrələnə bilərlər?***

- Ramazan ayı İslam şəriətində və İslam peyğəmbərinin yanında müstəsna fəzilətə malik olan aydır. Oruc tutmaq insanlar üçün çox faydalıdır. Orucluqla bağlı yüzlərlə hədis var. Bu ay cənnətin qapılarının açıldığı, cəhənəmin qapılarının bağlandığı və şeytanların zəncirləndiyi aydır. Bütün bunlar Ramazan ayının böyük fəzilətə sahib olduğunu göstəriciləridir.

***- "Rəcəb və Şaban ayları Ramazan ayına doğru hazırlıq aylarıdır" fikri doğrudurmu?***

- Bəli, doğrudur. Rəcəb ayı 7-ci, Şaban ayı 8-ci, Ramazan ayı isə Hicri-qəməri təqvimində 9-cu aydır. Rəcəb və Şaban ayına ona görə xüsusi əhəmiyyət verilir ki, insanlar Ramazan ayına öz nəfsini paklayaraq, yaxşı hazırlaşsınlar.

***- Ötən il olduğu kimi bu il də Ramazan ayı pandemiya dövrünə təsadüf edir. Beləliklə, toplu tədbirlər qadağan olunub və məscidlər bağlanıb. Bu, Ramazan ayinlərinə necə təsir edəcək?***

- Cüzam, xora kimi yoluxucu xəstəliklər tarix boyu mövcud olub. Koronavirus da bu yoluxucu xəstəliklərdən biridir. Peyğəmbərin hədislərində buyrulub ki, bir yerdə xəstəlik olduğu zaman, o yerə getməyin. Bu, onun göstəricisidir ki, xəstəliklərin artmasının qarşısı alınsın. Hal-hazırdakı vəziyyətə görə, pandemiya şəraitindəyik və yoluxma sayı günü-gündən artır. Yaxşı olar ki, insanlar iftar süfrələrini və digər tədbirləri öz ailə daxilində etsinlər.

***- Bir çox sahələrlə bağlı karantin yumşaldıqca mominlərdə məscidlərin açılmamasından dolayı bir küskünlük yaranır. Çünki, bu sahələrdə kütləvilik heç də məscidlərdən az deyil. Bütün bunlara baxmayaraq, onların fəaliyyətinə icazə verilib. Bununla bağlı dindarlara sözünüz nədir?***

- Dövlətin qəbul etdiyi qaydaqanuna riayət etməliyik. Əgər, kütləvi şəkildə toplaşmaq qadağandırsa bu hərkəsə aid olmalıdır. Əlbəttə ki, Azərbaycanda məscid mədəniyyəti böyük yerə sahibdir. Lakin, indiki şəraitdə səbrli olub, qayda-qanuna uyğunlaşmaq lazımdır. Dua edək ki, pandemiya aradan qalxsın və biz əvvəlki həyatımıza qayıdaq.

***- Azərbaycanda Ramazan ayına görə sərt karantinə keçid gözlənilir?***

- Buna TƏBİB daha doğru cavab verər. Lakin, deyə bilərəm ki, xəstəlik sayı artdıqca sərt karantinə keçid də yaxınlaşacaq. Bunu da nəzərə almalıyıq ki, koronavirus yalnız Azərbaycanı deyil, bütün dünyanı cənginə alıb.

***- Bir sıra deputatlar düşünür ki, pandemiyadan qurtulmaq üçün məscidlər açılmalı və biz dua etməliyik. Siz bu haqqda nə düşünürsünüz?***

- Karantin qaydalarına ciddi riayət etmək şərti ilə məscidləri açmaq yaxşı olardı. Lakin, bu məsələ dini deyil, tibbi məsələ olduğu üçün insan sağlamlığı daha önəmlidir. Namazı da, duanı da evdə də etmək olur. Məscidlərin açılmaması buna bəhanə olmamalıdır.

***- Ramazan ayı gəldikdə iki qisim insanları müşahidə edirik. Bunlardan bir qismi səhhətinə zərərli olduğu halda, israrla oruc tutur, digər qisim isə müxtəlif bəhanələrlə orucdan yayınır. İnsan necə qərar verməlidir ki, oruc ona vacibdir ya yox?***

- Xəstə və ya oruc tutduğu halda səhhəti pisləşən insanlar bunu etməməlidir. Oruc üçün yaş limiti yoxdur. Bəzən, 95 yaşında adam da oruc tuta bilər. Əgər, xəstə insanın oruc tutması onun səhhətinə zərər yetirirsə bu oruc batil olmaqla yanaşı, o şəxsin özü üçün də günah sayılır. Məsələn, şəkər xəstələrinin dərmansız, ac və susuz qalması çox çətin olduğu üçün, onların oruc tutmamağı həm günah sayılmır, həm də oruc tutmaları məsləhət deyil.

***- Dinimizə görə qızlar 9, oğlanlar isə 13 yaşından həddi-buluğa çatır və bu zaman oruc tutmaq onların da öhtəsinə düşür. Lakin, bəzən onların valideynləri övladı üçün narahat olduğundan buna icazə vermir. Bu halda dinin hökmü nədir?***

- Minimun yaş həddi əraziyə görə dəyişir. İsti ölkələrdə insanların yetkinlik çağı daha tez yetişsə də, soyuq ölkələrdə bu əksinədir. Azərbaycanda 9-13 yaş insanlara oruc tutmaq normal və önəmlidir. Arıqlıq, səhhətində yorğunluq və əzginlik olması orucdan yayınmağa bəhanədir. Əgər ortada həqiqətən huşsuzluq vəziyyəti varsa, o zaman yeniyetmə orucdan imtina edə bilər.

***- Bəzi insanlar yay mövsümündə susuzluğu bəhanə edərək orucdan yayınır. Lakin, 1 dəfə oruc tutduqdan sonra fikrində yanıldığını anlayır. Bu haqqda nə deyə bilərsiniz?***

- Belə insanlar çoxdur. Lakin, onlar bircə gün oruc tutduqdan sonra onun mahiyyətini dərk edir və davamlı olaraq əməl edir. İnsanı orucdan yayındıran şeytandır. Buna görə də, bir anlıq şeytandan uzaqlaşıb rəbbimizin buyurduqlarına əməl etsək, hər şey daha yaxşı olar.

***- Oruc tutan insanın aurası necə olur? Özünü necə hiss edir?***

- Orucluq ilk növbədə insanın əsəb sisteminə müsbət təsir edir və mənəvi yorğunluğu aradan qaldırır. İnsan yeməklə özünü ağırlaşdırır, lakin orucluqda yüngüllük hiss olunur. Oruc tutanda insanın nəfsi paklaşır, beynindən keçən günah ondan uzaq olur və nemətin qədrini bilir. Orucluq insanlara ona görə buyrulub ki, onlar ac insanların əhvalını başa düşsünlər.

***- Bəzi insanlar da vardır ki, 3-4-5-6 gün fasilə ilə oruc tutur və ayı başa vurur. Sizcə bu günahdırmı?***

- Adi vaxtlarda bu hallar ola bilər. Lakin, Ramazan ayında hər günün öz hesabatı var və qəsdən buraxılmış günlərin özünün kəffarəsi (cəzası) olur. Həmin insanlar bu günahı yumaq üçün, buraxdıqları hər bir günün müqabilində 60 gün oruc tutmalı və 60 yoxsulu doyurmalıdır.

***- Elə insanlar var ki, il boyu oruc tutur. Yəni, yalnız Ramazan ayında oruc tutulması şərtdir?***

- Orucluq bir neçə qismə bölünür. Bunlardan birincisi fərz və ya vacib orucudur ki, bunları icra etmək çox önəmlidir. İkincisi müstəhəb orucudur ki, tutulması savab, tutulmaması isə heç bir günah sayılmır. Üçüncüsü haram orucudur ki, bu günlərdə oruc tutmaq haramdır.

***- Hər il Ramazan bayramı günü ilə bağlı müsəlman dünyasında təqvim ixtilafı yaşanır. Adi vaxtlarda təriqət ayrı-seçkiliyi olmasa da, həmin günlərdə parçalanma yaranır və bayram namazları ayrı-ayrı günlərdə qılınır. Bunun həlli yolu nədir?***

- Peyğəmbər buyurur ki, ayı gördüyünüz zaman oruc tutun. Lakin, alimlərin baxış bucağı fərqlidir. İxtilafların yaranma səbəbi də buradan qaynaqlanır. Məsləhət olunur ki, hərkəs yaşadığı əraziyə uyğun bunlara əməl etsin.

***- Hacı, orucun kəffarəsini və ya iftar süfrəsini imkansız ailələrə ərzaq yardımı ilə əvəzləmək olarmı?***

- Üzrlü səbəblərdən oruc tutmayan insanlar bir yoxsxulu və ya acı sevindirməklə savab qazana bilər. Bu hal bəhasəni olan sağlam adamlara aid deyil. Ümumiyyətlə, Ramazan ayında olan ehsanın savabı çox-çox böyükdür. Həmçinin, oruc tutan insanın yuxusu da ibadətdir.

***- Sizin də az öncə qeyd etdiyiniz kimi, bu ay yardımlar olunmalıdır. Lakin, bəzən Ramazan ayında restoranlarda qiymətlərin bahalaşdığını, menyunun 40-60 manat arasında dəyişdiyini görürük. Bu günah sayılırmı?***

- Əlbəttə, bu işləri görməsələr daha yaxşı olar. Ramazan ayında ehsan süfrəsi açmaq çox böyük bir savabdır. Ramazan ayı "İlahi süfrə" adlanır. İnsanlar İlahi süfrəyə dəvət olunduğu hallarda, onları aldatmaq və kələk gəlmək böyük günah hesab edilir.

***- Fiziki qüsurları və hər hansısa xəstəlikləri olan insanlara nə kimi tövsiyyələriniz var?***

- Birincisi, belə insanlar Ramazan ayında gün ərzində istiğfar etsinlər. Bu günahların bağışlanması deməkdir. İkincisi zikr etməlidirlər. Ramazan ayında oxunan bir ayənin savabı adi aylardakına nisbətdə daha çoxdur. Üçüncüsü, əgər imkan varsa ehsan paylasınlar. Bunu da unutmaq olmaz ki, ehsan tox adamlar üçün yox, aclar üçündür.

***- Ramazan fitrəsinin məbləği nə qədər olmalıdır?***

- Şəriətdə fitrənin miqdarı bir ac insanın doyacağı qədərdir. Müasir ölkə öz vətandaşının qazancına görə verəcəyi fitrənin miqdarını müəyyən edə bilər. Azərbaycanda bu hər bir fərd üçün, 5-10 manat arası hesablanır. Həmçinin, fitrəni ərzaq şəklində vermək də olar.

***- Fitrə və zəkat nə vaxta kimi verilməlidir?***

- Ramazan ayının bitdiyi günə kimi verilə bilər.

***- Qurban kəsmək Qurbanlıq ayında şərtdir? Yoxsa digər aylarda da kəsmək olar?***

- İslam şəriətində qurbanlığın bir neçə növü var. Onlardan birincisi həcc ziyarətində kəsilən qurbandır. İkincisi isə Nəzir qurbanıdır.

***-"Qurban kəsəcəm" deyib, müəyyən problemlərə görə kəsə bilməmək günah hesab olunur?***

- Quranda belə bir ayə var ki, Allah heçkimə gücü çatmayacağı yük verməz. Əgər qurbanlıq üçün imkan yoxdursa, bu günah sayılmır. Borc edib qurban kəsmək düzgün deyil.

***- Sizcə, Həcc ziyarətinə getmək vacibdir?***

- Doğrudur, Həcc ziyarəti vacibdir. Lakin, həmin insanın sağlamlığı və maddi vəziyyəti yerində deyilsə, yol əmin-amanlığı yoxdursa, ailəsi çətindədirsə bu ziyarətin olmaması günah hesab olunmur.

***- Belə bir deyim var ki, "Ay tam görünərsə insanlar salavat çevirməlidir". Bu haqqda nə deyə bilərsiniz?***

- Doğrudur, ayın parçalanması haqqında rəvayət var. Lakin, hədisdə bunun kökü və sübutu yoxdur.

***- Ramazanda necə qidalanmaq lazımdır?***

- İslamda qida mədəniyyəti böyük əhəmiyyət daşıyır. Ramazan ayında isə bu daha vacibdir. Bir stəkan su ilə belə olsa sahura oyanmaq lazımdır. Həddindən artıq yemək yalnız Ramazanda deyil, adi vaxtlarda da zərərlidir. İftarı ilk olaraq yağlı tikələrlə deyil, xurma ilə açmaq daha yaxşıdır. Əgər, xurma yoxdursa, su da olar. Süfrədən isə doymamış şəkildə çəkinmək məsləhətdir.

***Ayşən Vəli***

# Milli peşəkar hərbçi kadrların hazırlanması gələcəyə hesablanmışdı

## Dövlət başçısının Sərəncamı ilə Cəmşid Naxçıvanski adına hərbi liseyin 50 illiyi qeyd olunacaq



Hər bir ölkə üçün ordu quruculuğu prosesində milli hərbi kadrların hazırlanması mühüm əhəmiyyətə malik sahə kimi daim prioritet təşkil edir. Müstəqil Azərbaycan Respublikasında bu sahəyə xüsusi diqqət yetirilir, Vətənə, dövlətə, dövlətçiliyə sədaqətli, yüksək mənəvi-psixoloji hazırlığa malik peşəkar hərbçi kadrların hazırlanması daim diqqət mərkəzində saxlanılır. Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu ordu quruculuğu strategiyasında ixtisaslı hərbi kadrların hazırlanması xüsusi yer tutur. Hələ Sovetlər İttifaqı dövründə Ulu Öndərin rəhbərliyi müstəqil Azərbaycanın milli zabit kadrlarının yetişdirilməsi zərurətini uzaqgörənliklə diqqətə alan Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1971-ci ildə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Lisey yaradılıb. Dahi rəhbər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə ilk dəfə Naxçıvanda milli ordu hissələri yaradılmışdır. Ulu Öndər ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra isə milli ordu quruculuğu sahəsində daha geniş tədbirlər görülmüş, Azərbaycan Respublikasının Silahlı Qüvvələri formalaşmışdır. Ulu Öndərin 1998-ci il 13 mart tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanski adına hərbi liseyin Naxçıvan filialının yaradılması da bu sahədə görülən işlərin tərkib hissəsidir.

Ümummilli Lider Heydər Əliyev belə deyirdi: "Hərbi peşə insandan həm fiziki hazırlıq, həm nizam-intizam, həm dövlətə, vətənə, ölkəyə, doğma torpağa sədaqət, həm də böyük cəfakeşlik, zəhmətsevərlik, mərdlik, qəhrəmanlıq, mətinlik tələb edir". Ölkəmizə rəhbərliyinin bütün dövrlərində bu hərbi təhsil ocağına ən yüksək səviyyədə diqqət və qayğı göstərən Ümummilli Lider Heydər Əliyevin siyasi kursu Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Cənab Prezidentin diqqəti sayəsində son illərdə Azərbaycan Ordusu istər döyüş qabiliyyətinə, istər maddi-texniki bazasına görə dünyada lider yerlərdən birini tutur.Bildiyimiz kimi, 2021-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyin fəaliyyətə başlamasının 50 illiyi tamam olur. Bu yubileyin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalayıb. Ulu Öndərin daim qayğı ilə yanaşdığı və xüsusi diqqət yetirdiyi bu tədris ocağı ötən müddət ərzində respublikamızda milli peşəkar hərbçi kadrların hazırlanması sahəsində müstəsna xidmətlər göstərmiş, cəmiyyətdə hərbi peşənin nüfuzunun yüksəlməsində və taleyini hərb sənətinə həsr edən gənclərin sayının davamlı artmasında əhəmiyyətli rol oynamışdır.

Sərəncama əsasən, Cəmşid Naxçıvanski adına hərbi liseyin ölkədə ordu quruculuğu işində təqdirəlayiq fəaliyyəti nəzərə alınaraq Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən 50 illiyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçiriləcək.Liseyin yetirmələri müstəqil Azərbaycanın Silahlı Qüvvələrinin formalaşdırılması və möhkəmləndirilməsi işinə dəyərli töhfələr vermiş, ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda aparılan döyüşlərdə həmişə ön cəbhədə yer almışlar. Sərəncamda qeyd olunduğu kimi, onlar böyük rəşadət nümayiş etdirərək "Vətən Müharibəsi Qəhrəmanı" və "Azərbaycanın Milli Qəhrəmanı" adlarına layiq görülmüş, orden və medallarla təltif olunmuşlar. Hərbi liseyin məzunları Vətən qarşısında vəzifə borclarını bu gün də şərəflə yerinə yetirirlər. Hazırda Silahlı Qüvvələrindəki zabitlərin əksəriyyəti məhz Cəmşid Naxçıvanski adına hərbi liseyin məzunlarıdır.Azərbaycanda ordu quruculuğuna dair bütün mühüm tədbirlər ardıcıl surətdə, dünya təcrübəsi nəzərə alınmaqla uğurla reallaşdırılır. Dövlət başçısının rəhbərliyi Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımlar bu gün milli ordumuzun dünyanın ən qüdrətli orduları sırasına daxil olmasına imkan yaradıb.

*Nəzakət ƏLƏDDİNQIZI*



## ŞƏHİD ADI

Murad, qəlbindəydi Vətən sevgisi,
Xalqına məhəbbət, elinə hörmət.
Cəbhəyə yollandın bir əsgər kimi,
Müqəddəs torpağa bağlıydı qeyrət.
Səni qorxutmadı top, tüfəng səsi,
Döyüşdün düşmənlə igid əsgərim.
Sinənə tuş oldu düşmən gülləsi,
Dünyaya yayıldı sənin hünərin.
Ali Baş Komandan verir qiymət,
Günəş qürub edir şəhidləriylə.
Enilməz bir dağdır şəhid zirvəsi,
Zirvə də fəxr edir zəfərləriylə.
Azərbaycan mərd oğullar diyarı,
Öyünür xalqımız igidləriylə.
Yeni tarix nəsillər yadigarı,
Bu tarix yazılır şəhidləriylə.

*Mürsəlova Ofelya Mürsəl qızı*

# Zohrabyan Paşinyanı manipulyasiya etməkdə günahlandırıldı

***Ermənistanın baş naziri Nikol Paşinyan dünən parlamentdə seçki kampaniyasına başlayıb və manipulyasiya yolu ilə problemli məsələlərdən yayınmağa çalışıb. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu sözləri jurnalistlər ilə söhbətində "Çiçəklənən Ermənistan" fraksiyasından millət vəkili Naira Zohrabyan söyləyib.***



Qeyd edək ki, Paşinyan, 18 Martda Respublika prezidenti Armen Sarkisyan və üç parlament fraksiyasının liderləri ilə siyasi məsləhətləşmələrdən sonra, erkən parlament seçkilərinin iyunun 20-də keçiriləcəyini elan edib. Bir gün əvvəl isə Paşinyan ölkə parlamentində çıxış edərək millət vəkillərinin suallarını cavablandırıb və bir sıra açıqlamalar verib. Zohrabyan, Paşinyanın rəhbərlik etdiyi siyasi qüvvənin hərəkətlərinin onun rədd edilməsinə səbəb olduğunu söyləyib.

"Dünən Paşinyan seçki kampaniyasına başlayıb və kampaniya zamanı ona veriləcək bütün sualları gizlətmək üçün yalan danışır, manipulyasiya edir və cavabdehlikdən boyun qaçırmağa çalışır", deyə Zöhrabyan bildirib. Xüsusilə, Zohrabyana görə, Paşinyandan müharibənin 4-cü günü keçmiş Baş Qərargah rəisinin dediklərini yalanlamaqla yenə də manipulyasiya edir. "Ona elə gəlir ki, kampaniya zamanı problemli olacaq bütün bu məsələlərin qarşısını aldı. Ancaq dünənki açıqlamalarıyla özünü başqa bir çıxılmaza sürüklədi", deyə Zöhrabyan əlavə edib.

Xatırladaq ki, 14 aprel tarixində Ermənistan parlamentində çıxış edən baş nazir, Onik Qasparyanın müharibənin 4-cü günü Təhlükəsizlik Şurasının iclasında itkiləri təqdim etdiyi 17 noyabr tarixli açıqlamasına toxunub. Silahlı Qüvvələrin vəziyyətlə bağlı qiymətləndirməsi və 2-3 gün ərzində müharibəni dayandırmaq üçün addımlar atılması lazım olduğu barədə təklifini yalanlayıb. Bir növ Paşinyan Qasparyanın üzünə durub və belə bir təklif etmədiyini israrla bildirib.

*İnam Hacıyev*

# Həkimdən açıqlama: "Koronavirus səbəbilə xəstəxanaya yerləşdirilənlərin çoxu buna görə ölür"

***"Koronavirusa yoluxmuş xəstələrin çoxu xəstəxanada buna görə ölür. SİA-nın Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Ghebreyesus son 40 ildə dünyada şəkərli diabet xəstələrinin sayının dörd dəfə artdığını söyləyərək yeni növ koronavirus səbəbiylə xəstəxanaya yerləşdirilən ağır xəstələrin əksəriyyətinin şəkər xəstəsi olduğunu bildirib.***

Onun sözlərinə görə, diabetlə əlaqəli vacib tədbirlər görülməlidir: "Diabet erkən ölüm riskini artıran və yoluxucu olmayan yeganə əsas xəstəlik növüdür. Bundan əlavə, Covid-19 səbəbiylə ağır halda xəstəxanaya yerləşdirilən xəstələrin əksəriyyətində şəkərli diabet var".

ÜST yeni Qlobal Diabet müqaviləsi ilə diabetin qarşısının alınması səylərini dəstəkləməyi və insulinin tapılmasından 100 il sonra ehtiyacı olan hər kəsi müalicə etməyi hədəfləyir. Müqavilə ÜST və Kanada hökuməti tərəfindən Toronto Universitetinin ilə birgə təşkil etdiyi Qlobal Diabet Sammitində elan olunur.

ÜST-nin müqaviləsi aşağı və orta gəlirli ölkələrdə diabet diaqnostika vasitələrinə, dərmanlara və xüsusən də insulinə əlçatanlığı artırmağı hədəfləyir. Təşkilata görə, hazırda dünyada insulin bazarında yalnız 3 şirkət hakimdir.

*Ayşən Vəli*



# Leyla Yunus riyakarlığı, qərəzliyi - "siyasi məhbus" reketçiliyi

*Yaxud 44 gün ərzində ermənilər dinc əhalimizi qətlə yetirməsilə bağlı niyə siyahı tutmurdu?*

***İllərdən bəri "demokratiya, insan hüququ" desə də, demokratiyanın nə olduğunu hələ də anlamayan Leyla Yunus üçün Vətən məfhumu yoxdur. Onun hikkəsi, qisasçılıq hissləri aman vermir ki, ədalətli olsun. Ona görə ildə azı iki dəfə kimsə tapmayanda terrorçuları, vətənə xəyanətdə ittiham edilənləri siyahısına salaraq onların işində siyasi motiv eşələyir. L.Yunus Azərbaycan cəmiyyətində o dərəcədə nüfuzdan düşüb, hörmətini itirib ki, hətta həmkarları, müxalifətdə olan bir çoxları belə onu qınayırlar, tənqid edirlər.***



Çünki L.Yunus üçün yalnız bir hədəf var - hansı yolla olursa-olsun, yalan-palan, böhtan, təki hakimiyyətə qarşı fəaliyyət göstərsin, dövlətin beynəlxalq aləmdə mövqeyinə zərbə vursun. Vətən müharibəsində qalib gəlmiş, torpaqlarını işğaldan azad etmiş, müxtəlif xarici təzyiqlərlə üzbəüz qalmış ölkənin hüquq müdafiəçisi özünü belə aparmamalıdır. Görə bilsəydi Gəncəyə, Bərdəyə, Tərtərə və digər ərazilərimizə qarşı terror edən ermənilərlə bağlı Avropa təşkilatlarına yazardı, qərəzli qətnamələr çıxaran Niderland, Belçika, Lüksemburq, Fransa parlamentlərinə etirazını bildirərdi, amma bu həqiqətləri görməzdən gələn ahıl qadın hikkəsini boğa bilmir.

### Novella Cəfəroğlu: "Leyla Yunus heç zaman nə Azərbaycanı, nə də xalqı sevib"

Dilarə Əliyeva adına Qadın Hüquqlarının Müdafiəsi Cəmiyyətinin sədri, ölkənin ən stajlı hüquq müdafiəçisi Novella Cəfəroğlu Leyla Yunus heç zaman nə Azərbaycanı, nə xalqı sevmədiyini deyib: "Onu əvvəldən yaxşı tanıyırsınız. Hüquq müdafiəçiliyi onun üçün insanlara kömək yox, pul qazanmaq vasitəsidir. Onun bir amalı var ki, pul qazansın. İndi görünür, yenə pulları qurtarıb, təzə siyahı tutur. Yəqin həbsdə olan rüşvətxorlar ona pul verib, adlarını siyahıya saldırırlar. Bu, Leyla Yunusun köhnə xasiyyətidir. O, Bakıda olanda da köhnə siyahıları tərtib edirdi".

### Əlimənmməd Nuriyev: "Leyla Yunusun Azərbaycana aidiyyati yoxdur"

Əfv Məsələləri Komissiyasının üzvü, hüquq müdafiəçisi Əliməmməd Nuriyev dedi ki, belə adamlara heç diqqət yetirmək lazım deyil. Onun fikrincə, L.Yunusun Azərbaycana aidiyyəti yoxdur: "Bu ölkədə hörmətli hüquq müdafiəçiləri var, səmərəli fəaliyyət göstərirlər. Belə adamların bu vətənə, xalqa sevgisinin olması suallar doğurur. Bu gün vaxtından əvvəl azadetmə halları var, eləcə də həbsi ictimai müzakirə yaradan şəxslərin azad buraxılması davam etməkdədir. Sadəcə, bir sıra şəxslərin əlində "siyasi məhbus" siyahısı biznes fəaliyyətindən başqa bir şey deyil. Bu, çirkli biznesdir, təmiz biznes sayıla bilməz".

Ə.Nuriyev onu da vurğulayıb ki, hesab edir ki, əqidəsindən asılı olmayaraq kim müraciət edirsə, barəsində məlumat varsa dəstək verməyə çalışır: "Eyni zamanda Novella Cəfəroğlu, Səidə Qocamanlı həmişə maraqlanırlar. Bu gün Zaur Əkbər, Rəsul Cəfərov və başqaları var, yeni nəsil gəlməkdədir. Onlar bu və da digər şəxslər haqda məlumat verirlər. Amma ölkədən kənarda kimsə siyahı tutur, Azərbaycanı təhdid etməyə çalışır. Onların fikirləri ermənilərin bizə münasibəti ilə eynilik təşkil edir. Çünki Azərbaycanda hüquq müdafiəçiləri müharibə getdiyi zaman erməni terrorizminə susmadılar, obyektiv fikir söylədilər, bu adamın isə səsi çıxmadı. Azərbaycanı gərək sevəsən, onda tənqid də edirsən, yaxşıları da görürsən. Burada isə qrant maraqları var, başqa heç nə yoxdur. Bundan Azərbaycana qarşı təzyiq kimi istifadə etmək, vəsaitlər qazanmaq olmaz". Leyla Yunus riyakarlığı nə qədər güclüdür ki, həqiqətləri görə bilmir. Leyla Yunus sosial şəbəkələrdən deyir ki, "bizim adımızı tarixdən silmək mümkün olmayacaq". Ancaq anlamır ki, sizin kimi satqın ünsürləri xalq çoxdan silib və tarixin zibilxanasına da atıb.L.Yunus sosial şəbəkələrdə çıxışlar edərək "Azərbaycanda "siyasi məhbus" olduğunu, guya onların müdafiəsinə qalxdığını deyir. O zaman 44 gün ərzində ermənilər dinc əhalimizi qətlə yetirilərkən L.Yunus həmin hadisələrlə bağlı niyə siyahı tutmurdu? Çünki əməllərin riyakar, qərəzlidir və bundan da əl çəkə bilmirsən. Leyla Yunus kimilərə ölkəmizə qarşı sosial şəbəkələrdə etdiyi qərəzli çıxışlarına qətiyyən yol verilməməli, dövlətimizə, xalqımıza xəyanət edənlər ən sərt şəkildə cəzalandırılmalıdır.

***Rəfiqə HÜSEYNOVA***

# Cinayətkara bir cavab var - x- CƏZA!



### Vidadi İsgəndərli kimilər qanun qarşısında cavab verməlidirlər

Xarici ölkələrdə istəməyən qüvvələr, ayrı-ayrı çevrələr var. Onların müəyyən hissəsi də Fransada yerləşir. Nəyə görə məhz Fransa? Bildiyiniz kimi, Fransa erməni diasporunun çox olduğu dövlətlərdən biridir. Fransa erməni diasporunun bir çox hallarda təsiri altına düşür. Hətta bu xarici siyasətdə də belədir. Məlumdur ki, Fransanın bir sıra şəhərlərinin merlərinin, Fransa parlamentinin bəzi senatının üzvlərinin işğal altındakı Dağlıq Qarabağa səfəri baş tutub. Bütün bunlar hamısı ondan xəbər verir ki, Fransada böyük ermənipərəst qüvvələr var. Və həmin ünsürlər Azərbaycana qarşı zaman-zaman iş aparıblar və antiAzərbaycan fəaliyyəti ilə məşğul olublar. Həmin manqurtlardan biri də Vidadi İsgəndərlidir ki, o da bir çoxları kimi Fransaya gedib və orada "sığınacaq" alıb.

### Zəmanəmizin manqurtu...

Özünü hüquq müdafiəçisi kimi qələmə verən Vidadi İsgəndərli öz çirkin əməllərini ört-basdır etmək məqsədilə Avropaya - Fransaya qaçaraq "siyasi mühacir" adı altında bu ölkəyə sığındı. Sığınan kimi də bütün etik normaları aşmaqla və bununla da əxlaq səviyyəsinin aşağı olduğunu bir daha nümayiş etdirməklə ölkəmizə, eləcə də nüfuzlu ictimai-siyasi şəxslərə qarşı təhqirlər, hədyanlar yağdırmağa başladı. Bununla da anormal düşüncəyə sahib olan Vidadi İsgəndərli sosial şəbəkələrdə səsləndirdiyi fikirlərlə, söyüş və təhqir dolu videolarla havadarlarının daha çox "rəğbətini" qazandı. Bu o Vidadi İskəndərlidir ki, xalqımız, bütün türk dünyasının qürur və iftixar hissi ilə bir milyondan çox soydaşlarımızın 30 illik həsrətinə 44 gün ərzində son qoymaqla ərazi bütövlüyümüzə nail olduğumuza sevindiyi halda, bu gün Ermənistanın və erməni lobbisinin maraqlarına xidmət edən manqurt Vidadi İsgəndərli və onun kimiləri üçün milli heysiyyat, Vətən, xalq məfhumu havadarlarından aldığı qrantlarla müqayisədə çox dəyərsizdir. Şübhəsiz, belə xəyanət yolunu tutanlar ermənilər, ya da Avropadakı erməni təşkilatları ilə birbaşa bağlı olanlardır. Yeri gəlmişkən, qeyd edək ki, II Dünya müharibəsi dövründə faşistlər müxtəlif millətlərdən olan satqınları ətraflarına yığaraq onlardan müxtəlif şəkildə istifadə edirdilər. Bu gün isə ermənilər öz sələflərinin əməllərindən daha səmərəli şəkildə faydalanmaqdadırlar. Satqınlığı, gizli təşkilatlarla əməkdaşlığı sübut olunan, yalan, böhtan söyləməklə rekordları qıran Vidadi İsgəndərli kimi Vətən xaininin torpağına, elinə, obasına qənim kəsilməsi bunlarla bitmir. Vicdanını yadellilərə satan Vidadi İsgəndərli bu günlərdə terrorçulara xas olan fikirlər səsləndirməklə özünün də terrorist niyyətini ortaya qoyub. Belə ki, bu vətən xaini deyib: "Biz Qarabağda müharibə elan etsə, həmin silahı ermənilərə qarşı yox, Azərbaycan hakimiyyətinə qarşı istifadə edəcəyəm".

Göründüyü kimi, Ermənistana və ermənipərəst dairələrə xidmət edən Vidadi İsgəndərlinin belə bir fikir söyləməsi onun erməni xislətindən irəli gəlir. Bu mənada bütün gününü Azərbaycan əleyhinə təbliğat aparan ermənipərəst dairələrlə keçirən bir kəsin, manqurt Vidadi İsgəndərlinin belə "düşünməsi" heç də təəccüblü deyil. Amma Vidadi İsgəndərli unutmasın ki, "Dağlıq Qarabağ" problemi artıq yoxdur. Artıq 2020-ci il noyabrın 10-da, 44 gün ərzində Qarabağ Azərbaycandır və Nidasını qoyub. O zaman sən Vidadi İsgəndərli silahdan ermənilərə qarşı istifadə et. Bir də Azərbaycan hakimiyyəti xalqa məxsusdur. Bu gün hakimiyyətlə xalq yekdildir. Bu isə o deməkdir ki, sən vətən xaini kimi öz xalqına ermənilərdən betər qənim kəsilmisən, hətta onun qanına susamısan. Səni isə bu rəzalətlərinə görə indiki və gələcək nəsillər nifrətlə yad edəcəklər. Üstəlik, xalqımız, dövlətimiz, ölkəmizin başçısına qarşı belə mövqe nümayiş etdirdiyinə görə qanun qarşısında cavab verməli olacaqsan. Çünki cinayətkara bir cavab var - x- CƏZA!

***R.HÜSEYNOVA***

## "Proseslər onu göstərir ki, müxalifətin xisləti dəyişməyib"



"Son günlərdə Azərbaycan dövlətinə və dövlət təmsilçilərinə qarşı təxribat xarakterli informasiya kampaniyasının aparıldığı aşkar görünür. Bu kampaniya şəbəkələşmiş formada, ən müxtəlif istiqamətlərdən həyata keçirilir. Burada dünyanın müxtəlif qütblərində yerləşən ayrı-ayrı qurumları, Avropada sığınacaq tapan "söyüş müxalifətini", həmçinin, ölkə içində mövcud olan "radikal düşərgə" təmsilçilərini görmək mümkündür". Bunu SİA-ya açıqlamasında Media eksperti Müşfiq Ələsgərli deyib.

Onun sözlərinə görə, Avropadakı "söyüş müxalifəti" Azərbaycan əhalisinə müraciət edərək kütləvi itaətsizlik göstərməyə səsləyirlər: "Ölkə içindəki radikal müxalifət isə, ad çəkməsə də, onlarla həmrəylik göstərərir, ayrı-ayrı mövzular üzrə problemləri qabardır, ictimaiyyəti ayağa qalxmağa səsləyirlər. Özünü beynəlxalq statuslu təşkil elan etmiş, həmişə Azərbaycana qarşı qərəzli davranmış təşkilatlarda da hərəkətlilik var, Azərbaycanı ən müxtəlif məslələr üzrə, qondarma arqumentlərlə tənqid edirlər. Təbii ki, belə ayrı-ayrı komponentlərin eyni vaxtda, mütəşəkkil şəkildə hərəkətə keçməsini təsadüfi saymaq olmaz. Bu prosesi təşkil edən müəyyən bir güc mərkəzinin olduğunu şübhə doğurmur. Maraqlı olan məsələ bu koordinasiyanın kim tərəfindən edilməsidir. Əslində bu da qeyri-müəyyən deyil".

M.Ələsgərli onu da bildirib ki, Azərbaycanın son vaxtlar yürütdüyü siyasəti, əldə etdiyi nailiyyətləri analiz edib nəticə çıxarmaq olar ki, bu siyasət, bu nailiyyətlər kimlərin marağına uyğun deyil, kimlər bu prosesə qarşı çıxa bilərlər: "Azərbaycan 2020-cildə Qarabağ münaqişəsinin həlli üçün uğurlu əməliyyat keçirdi, dünya erməni şəbəkəsinin planlarını alt-üst etdi. Müharibənin aktiv fazası bitsə də, mübarizə bu gün də davam edir. Azərbaycan Ermənistanın işğalçılıq siyasətinə dəstək vermiş, Cənubi Qafqazda sabitliyi pozmuş ayrı-ayrı dövlətləri, güc mərkəzlərini bir-bir ifşa edir, onları dünya ictimaiyyətinə tanıtdırır. Təbii ki, onlar da müqavimət göstərirlər, Azərbaycanı öz haqq işindən çəkindirməyə çalışırlar. Bunun üçün müxtəlif vasitələrdən, o cümlədən, ölkə içindəki satqın qüvvələrdən də istifadə edirlər. Bu baxımdan "radikal düşərgənin" hərəkətlərinin səbəbləri aydındır. Onlar heç vaxt xalqa söykənməyiblər, daxildən güc almayıblar, daima xaricdə havadar axtarıblar. İndiki proseslər onu göstərir ki, müxalifətin xisləti dəyişməyib".

***Gülyana***

***Moskva-Baku platformasında “Fokus” proqramında aparıcı Darya Tarasova xarici mediada Azərbaycanla bağlı yazılan bəzi məqalələrdən danışıb. Verilişdə qeyd olunan məqamları oxucularımıza çatdırmaq istəyirik.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti çərçivəsində hazırlanı.***

# Azərbaycan xarici mediada: nələr yazırlar?

## *Bir fransız jurnalisti Azərbaycan haqqında erməni miflərini necə məhv etdi?*



### Ölkənin həqiqi mənzərəsi

Nədənsə Fransada Qarabağ münaqişəsində məşhur əsərdəki kimi 3 personaj olduğu qəbul edilir- Yaxşı (Ermənistan), Pis (Azərbaycan) və Çirkin (Türkiyə). Əslində, hər şey tamamilə fərqlidir- deyə Fransanın “Causeur” qəzetinin müəllifi Fransua Marqolin yazır.

Müəllif münaqişə zamanı Fransa mətbuatının Ermənistanın tərəfini tutduğunu qəbul edir: “Əlbəttə, bunun bir izahı var: Erməni icması Fransada bu qədər müddətdir mövcuddur və o qədər yaxşı inteqrasiya olunmuşdur ki, fikirlərini təbliğ etmək üçün bütün metodlardan istifadə etmişdir”.

Fransua Marqolen fərqli bir fikir eşitməyə qərar verdi və Azərbaycana getdi. Odlar yurdunda onu isti qarşılamış, ölkəni sərbəst gəzə bilmiş, eləcə də 2020-ci ilin sonunda Azərbaycan ordusu tərəfindən azad edilmiş Qarabağ ərazisindən keçmişdir. Və müəllifin təəccübləndiyi bir məqam, özünün dediyi kimi, “Azərbaycan Ermənistanın dediyi kimi, dəhşətli bir İslam ölkəsi deyil”.

“Əslində, ölkə 1918-ci ildən bəri dünyəvi bir respublikadır, qadınlar o andan etibarən səs vermək hüququna sahibdirlər (yəni Fransadakından təxminən 30 il əvvəl bu hüququ almışlar) və orada heç kim çadra geyinmir. Həm paytaxtda, həm də kəndlərdə. Heç bir yerdə. Üstəlik, oradakı qızlar mini yubkalar geyinir və böyük şəhərlərdə dolu olan barlarda dostları ilə içməyi sevirlər. Parisdəki kimi. Ölkə əhalisinin 96%-i müsəlmandır, ancaq heç bir yerdə müəzzin səsi eşitməyəcəksiniz, məscidlər praktik olaraq boşdur və bütün dinlər ahəngdar şəkildə mövcuddur”.

Müəllif antisemitizm əlamətləri tapmağa çalışıb, ancaq bunun Fransada daha çox olduğuna əmin olub. Bakıda bir sinaqoqda ona 1942-ci ildə Vermaxtda 30.000 nəfərlik bir erməni legionu quran, Ukrayna, Krım və hətta Fransanın cənubundakı yəhudilərin qətliamından məsul olan, Ermənistanda bu gün hörmət olunan Qaregin Njde adlı “qəhrəman” haqqında danışdılar.

“Əlbəttə ki, bu legiona görə bütün erməniləri günahlandırmaq ədalətsizlik olardı. Buna baxmayaraq, 2016-cı ildə İrəvanın mərkəzində bu generalın abidəsinin meydana çıxması və bu yaxınlarda Qarabağ ermənilərinin onun Martunidəki heykəlini sökməkdən imtina etmələri onların “qəhrəman”a olan qəribə münasibətlərindən çox şey deyir. Deyim ki, hər iki fakt da 20-ci əsrdə soyqırımın əsas qurbanı olduqları üçün hər zaman yəhudilər və ermənilərin bir növ “metafizik ittifaqının” mövcudluğuna inanan bir insan kimi məni şoka saldı.

“Yaxın gələcəkdə Fransua Marqolen içərisində çox maraqlı məqamların olacağı Azərbaycan haqqında sənədli film nümayiş etdirəcəyini vəd edir. Gözləyirik!

### Azərbaycandan Türkiyəyə şəxsiyyət vəsiqəsi ilə

Azərbaycan və Türkiyə vətəndaşları 1 aprel tarixindən etibarən daxili şəxsiyyət sənədlərindən istifadə edərək hər iki tərəfə qarşılıqlı səfərlər edə bilərlər. Bu barədə Türkiyə mətbuatı xəbər verir. Türkiyədə vizasız qalma müddəti 90 gündür. Türkiyə Azərbaycanın sərhəddən keçmək üçün şəxsiyyət vəsiqələrinin sənəd kimi istifadəsinə dair sənəd imzaladığı ilk ölkədir. “Bu, ölkələrimiz arasındakı dostluq, qardaşlıq münasibətlərinin və yüksək səviyyəli strateji tərəfdaşlığın bariz təzahürüdür”- Azərbaycan Xarici İşlər Nazirliyi bildirib.

Hazırda vətəndaşlar Azərbaycan və Türkiyə arasında qarşılıqlı səfərlər üçün hava nəqliyyatından istifadə edirlər. Hər gün hər iki istiqamətdə bir neçə uçuşu Azərbaycan Hava Yolları və Türk Hava Yolları təyyarələri, eləcə də Azərbaycan ucuz hava yolu şirkəti “Buta” həyata keçirir.

İki ölkə, keçən il Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə sərnişin axınına başlamağı planlaşdırmışdı, ancaq pandemiya səbəbiylə təxirə saldılar. Bundan əlavə, fevral ayının ortalarında Füzuli rayonunda Goradiz-Ağbənd dəmir yolunun inşasına başlanılmışdır. Gələcəkdə bu yol Ermənistanın ərazisindən keçməklə Naxçıvan Muxtar Respublikasını Azərbaycanın əsas hissəsi ilə birləşdirəcək və Türkiyəyə birbaşa çıxış açacaqdır.

### Böyük futbol bayramı tamaşaçı ilə olacaq

UEFA Avropa çempionatının oyunlarının 12 şəhərin hamısında keçiriləcəyini və tamaşaçıların tribunalara buraxılacağını təsdiqlədi. İngilis mətbuatı bu barədə yazır. “Avro-2020-yə ev sahibliyi edən şəhərlər planlarını UEFA-ya təqdim edir və burada matçlara nə qədər azarkeş göndərə biləcəklərini ətraflı təsvir edirlər.

Rusiya və İngiltərə liderdir, hər ikisi stadionları dolduracağını vəd edirlər. “Dailymail” bildirir ki, koronavirus təkcə Bakıdakı Avro-2020 oyunlarını deyil, Qarabağdakı bitmiş münaqişəni də təhdid etdi.

UEFA Bakıda 3 qrup matçının və 1/4 finalın tamaşaçı ilə keçiriləcəyinə əmindir. Xatırladım ki, Avropa çempionatı 2020-ci ildə baş tutmalı idi, ancaq koronavirus səbəbiylə ləğv edildi. Avropa ölkələri arasındakı sərhədlərin karantin səbəbiylə bağlanması vəziyyəti çətinləşdirdi.

SSRİ yığma komandasının qazandığı ilk Avropa kubokunun 60-cı ildönümü şərəfinə, Avropada geniş miqyaslı bir futbol festivalı keçirilməlidir. Final Londonda, əfsanəvi Uembli Stadionunda baş tutacaq. Futbol azarkeşləri bu dəfə pandemiyanın futboldan zövq almalarına mane olmaması üçün dua edirlər.




### Böyük mütəfəkkirin 880 illik yubileyi

Bu il dünyada bir yubiley tarixi qeyd olunur. Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasından 880 ildönümüdür. Moskvanın Şərq Muzeyində “Nizaminin süjetləri və təsvirləri” sərgisi açıldı. Layihə Heydər Əliyev Fondu tərəfindən dəstəklənir. Sərgi 3 may tarixinədək ziyarətçilər üçün açıq olacaq. Bu barədə Rusiyanın TASS agentliyi məlumat verib.

Misirdə isə beynəlxalq televiziya kanalı olan Egypt Nile (NIL) TV Nizami Gəncəvi haqqında bir proqram nümayiş etdirdi. Verilişdə Azərbaycan tarixi, füsunkar təbiəti, ölkənin son nailiyyətləri, eyni zamanda şairin yaradıcılığı və həyatı haqqında məlumat verilib. Yubiley şərəfinə Azərbaycanın Misirdəki səfirliyi şair və mütəfəkkirin 880 illiyinə həsr olunmuş konfrans təşkil etdi.

### Novruz bayramı

Azərbaycanın ən parlaq bayramı olan Novruzun və baharın gəlişinin şərəfinə Rusiyanın “Moya Planeta” telekanalı azərbaycanlıların astronomik gücə-gündüz bərabərliyi gününü necə qarşıladıqları və Azərbaycan süfrəsində hansı yeməklərin verildiyi barədə bir süjet hazırladı. Bunların çoxuna resept kitablarında rast gəlinmir.

Aparıcı Anton Zaytsevə resepti bir neçə əsr əvvəl ixtira edilmiş və tərkibində 100 inqridiyent olan sirli ədviyyat hədiyyə edildi. Kompozisiya ciddi şəkildə qorunur, amma gəlin bir şey təxmin etməyə çalışaq. Zəfəran və zəncəfil, hindistan cevizi, qərənfil və bir gül. Digər 95 komponenti təxmin etmək qalır.

Novruzun əsas balıq yeməyi “Ləvəngi”nin bişirilməsini göstərdilər. Ənənəvi Azərbaycan şirniyyatları olan şəkərbura, paxlava... Süjet yalnız şirniyyatların hazırlanmasının bütün mərhələlərini izah etmədi, həm də ətraflı bir resept verdi.

Hər kəs öz mətbəxində üyüdülmüş fındıq, şəkər və hil ilə doldurulmuş şəkərbura hazırlamağa cəhd edə bilər, amma pandemiya geri çəkilən kimi Azərbaycana gedib özünəməxsus Azərbaycan mətbəxindən dadmaq daha yaxşıdır.

Son bir həftədə xarici media Azərbaycanı belə gördü.

***Tərcümə - Elçin Bayramlı***

**Verilişə buradan baxa bilərsiniz**

**https://www.youtube.com/-watch?v=AcYnlje2Ecl**

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# Səs

Son səhifə

16 aprel

## "Barselona" solaxay futbolçu axtarır




İspaniyanın "Barselona" futbol klubu, yeni mərkəz müdafiəçisi almağı planlaşdırır. Bu barədə "Mundo Deportivo" nəşri məlumat yayıb. Bildirilib ki, Kataloniya təmsilçisi Samuel Umtitini satmaq niyyətindədir və onun yerinə solaxay mərkəz müdafiəçisi axtarır. "Barsa" hələ də "Milan"ın futbolçusu Alessio Romanyolinin transferində maraqlıdır. Klub həmçinin "Ayaks"dan Lisandro Martines, "Feyenoord"dan Markos Senesini izləyir.

## Soyuq duşun faydaları - Mütləq oxuyun

***Hamımız bilirik ki, soyuq duş qəbul etmək bizi oyadır və bizə yaxşı enerji verir. Soyuq su ilə qısa bir duş qəbul etmək dəri sağlamlığına faydalıdır və dəri problemlərini aradan qaldırmağa kömək edir:***



### 1- Dəriyə təbii parlaqlıq verir

Soyuq duş qəbul etmək qan dövranını artırmağa kömək edir. Bu şəkildə üzə təbii bir parıltı verə bilər. Üstəlik bunun üçün uzun müddət duşda qalmağınıza ehtiyac yoxdur. Dərini qidalandırmaq üçün bir az soyuq və ya isti su da kifayət edə bilər.

### 2. Dərinin yaşlanmasının qarşısını alır

Soyuq duş qəbul etmək vərdişiniz varsa, deməli dərinizin uzun müddət gənc qalacaq. Soyuq su əsəb sisteminizi aktivləşdirir. Bu, bədənin streslə mübarizə hormonlarını və beyin kimyəvi maddələrini sərbəst buraxmasına imkan verir.

Araşdırmalar göstərir ki, psixoloji stres dərinin qocalmasına birbaşa təsir göstərir və bədənin bir çox sistemini mənfi təsir göstərir.

### 3. Dəri ilə bağlı problemlərin qarşısını alır

Soyuq duş beyinə çox miqdarda elektrik impulsu göndərir və xoşbəxtlik hormonu olaraq bilinən endorfinlərin sərbəst buraxılmasına kömək edir. Bu kimyəvi maddələr orqanizm tərəfindən sərbəst buraxıldıqda, stres səviyyəsi azalır və sızanaq, sədəf və dermatit kimi dəri problemlərinə daha az meylli olursunuz.

### 4. Məsamələri sıxlaşdırır

İsti su dərinin qoruyucu yağlarının məhv olmasına səbəb ola bilər. Soyuq su məsamələri müvəqqəti daraldaraq bu problemin qarşısını alır.

Həm də üzünüzə canlılıq və parlaqlıq əlavə edir. Soyuq su qan damarlarının sıxılmasına səbəb olduğundan dəridə daha az şişlik və qızartı olur.

### 5. Qaşınmanın qarşısını alır

İsti su dərinin qırmızı, qaşınmasına və soyulmasına səbəb ola bilər. Soyuq su isə bunun əksini edir. Qaşıntıdan əziyyət çəkənlər üçün soyuq duş yaxşı bir müalicə ola bilər. Bir işə görə, dərinin soyuq su ilə yuyulması, sədəfin yaratdığı güclü qaşıntıları azaltmağa kömək edir.

*Arzu Elsevərqızı*

**ELAN**

**Bank "BTB" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarının illik ümumi yığıncağı 31.05.2021-ci il tarixində saat 11:00-da Bankın Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov, 27 ünvanında yerləşən Baş ofisində keçiriləcəkdir. Səhmdarlar yığıncağın gündəliyi ilə Bankın Baş ofisində tanış ola bilərlər.**

* * *

**"İqbal" kiçik müəsissəsinə aid möhür və ştamp itdiyi üçün etibarsız sayılır.**

## Ramazan ayında həzm problemi yaratmayan qaydalar



***Bir çox insan Ramazan ayında həzm problemləri və dəyişən pəhriz səbəbi ilə şikayət edir. Uzun müddət ac qalmaq, susuzluq, üstünlük verdiyimiz yeməklər, gec həzm olunan yeməklər və hərəkətsizlik kimi bir çox səbəb mədə-bağırsaq problemlərinə səbəb ola bilər. Ramazan ayında həzm problemi yaşamamaq üçün nəzərə alınması lazım olan 8 vacib qaydanı təqdim edirik.***

Ramazan ayında düzgün qidalanma proqramı tətbiq etməyimiz, pandemiya davam etdiyinə görə hər zaman olduğundan daha vacibdir. Sağlam həzm sistemi ilə güclü immunitet sistemi əldə etmək mümkündür. Ancaq immunitet sistemimizi möhkəm saxlamağa çalışarkən həzm sistemimizi yormamalıyıq. Xüsusilə bir çoxumuz uzun müddət ac qalmaq, susuzluq, üstünlük verdiyimiz yeməklər, sahurda gecə yeməyimiz və hərəkətsizlik kimi səbəblərdən mədə-bağırsaq problemləri ilə qarşılaşa bilərik. Lakin həzm sisteminin işləməməsi immunitet sisteminizin zəifləməsinə və bədənimizin həssas olmasına səbəb olur. Bu, özün də fərqli sağlamlıq problemləri gətirir.

Ramazanda ən çox rast gəlinən həzm sistemi problemləri bunlardır; qaz, şişkinlik, ürək bulanması, qəbizlik, ishal, yeməkdən sonra yorğunluq və qarın ağrıları. Lakin biz düzgün qidalanma ilə bu problemləri aradan qaldıra bilərik. Bu üsullarla Ramazan ayını daha sağlam keçirmək mümkündür.

**1)** Yeməyə tələsməyin, mümkünsə iftar yeməyini ikiyə bölün. Şorba içdikdən sonra 5 dəqiqəlik bir fasilə verdiyinizə əmin olun və mədəyə uyğunlaşmaq üçün vaxt vermək üçün evin ətrafında kiçik bir yürüyüş edin. Şirniyyat və meyvə kimi qidaları yeməkdən 2 saat sonra qəlyanaltı kimi istehlak edin.

**2)** Yeməyi yaxşı çeynəyin. Bu, həzmə kömək edir və həzm sisteminiz daha az yorulur.

**3)** İftar və imsak yeməyində hər zaman tərəvəz və ya salatlara - yaşıllıqlar qəbul etməyə üstünlük verin. Ağ çörək əvəzinə qara çörəyi ,çovdar çörəyi və maya istifadə olunmayan çörəkləri seçin. Həftədə iki dəfə baklagillər istehlak etməyə çalışın. Paxlalıların qaz əmələ gətirmə xüsusiyyətlərini azaltmaq üçün əvvəlcədən bir axşam islatmaq lazımdır.

**4)** Mədəni rahatlatmaq və həzmi gücləndirmək üçün çox soda və mineral su istehlak etmək ən çox görülən səhvlərdən biridir. Ancaq məşhur inancın əksinə olaraq qazlı içkilər şişkinliyi artırır. Bundan əlavə, maye itkisi səbəbindən istehlakı məhdudlaşdırılmalıdır. Çox güclü çay və qəhvənin həddindən artıq istehlakı mədə ağrısını da artıra bilər.

**5)** Çox yağlı, ədviyyatlı və qızardılmış qidaların istehlakını məhdudlaşdırın, çünki mədə ağrısını və yanmasını artıra bilər.

**6)** Sahurda yağlı və ağır yeməklər yerinə yüngül səhər yeməyi tərzində yemək yeməyə çalışın. Yumurta yemək məsləhətlidir.

**7)** Kifayət qədər su içməyə çalışın. Su həm sağlam həzm, həm də mədə turşularının istehsalı üçün vacibdir. Ayrıca, yeməklə deyil, əvvəl və ya sonra su içməyə diqqət yetirin.

**8)** Hərəkətsizlik qarşılaşa biləcəyimiz həzm problemini təşviq edə bilər. Buna görə də, iftardan dərhal sonra oturmaq əvəzinə qısa gəzintiyə çıxmağa çalışın və bu müddətdə idmanı gündəlik hala gətirin.

*Qönçə Quliyeva*

*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc və SİA agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600